

# Hikmət Hacıyev Simonyana cavab verdi

*Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistan parlamentinin sədri Alen Simonyana cavab verib. "Unikal" xəbər verir ki, Hikmət Hacıyev bununla bağlı "Twitter"də paylaşım edib. "Ermənistanın siyasi rəhbərliyi sözlə oynamaq əvəzinə, Laçın yolu ətrafında beynəlxalq ictimaiyyəti aldatmağa...*

Səh.2

UNİKAL

№27 (2161) 28 iyul 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru



# Samir Şərifovun ətrafında "halqa daralır"

## Onun himayə etdiyi BNA rəhbəri ciddi təhlükə qarşısındadır

*Yola salmaq üzrə olduğumuz həftə "Bakı Nəqliyyat Agentliyi" (BNA) publik hüquqi şəxsin vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlandı. Bu barədə Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumatda qeyd olunub ki, istintaqla Agentliyin Yol hərəkətinin təşkili şöbəsinin müdir müavini Vüqar Hüseynovun həmin vəzifədə işləyərkən qeyd olunan struktur qurumun məsləhətçisi Hikmət Vəlizadə ilə əlbir olaraq 2023-cü ilin iyun-iyul ayları ərzində Bakı şəhəri ərazisində parklanma sahələrinin təşkil olunması üçün müvafiq prosedurların həyata keçirilməsi müqabilində müxtəlif şəxslərdən ümumilikdə 16 min 500 manat məbləğində pul vəsaitini rüşvət qismində almasına əsaslı şübhələr müəyyənləşdirilib.*

Səh.5

Səh.9

# Ermənilərin məkrli planı danışıqlar prosesini sabotaj edir




## "Bankların bağlanmağındansa, onların sağlamlaşdırılmasına çalışmaq lazımdır"



*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, uçot dərəcəsinin sabit qalmasının iqtisadiyyata təsirindən, ilin sonuna qədər inflyasiyanın nə qədər ola biləcəyindən, hansı bankların bağlanma riskinin olmasından və taksi...*

Səh.4

## Diplomatlar Laçın yolu ilə bağlı XİN-ə çağırıldı



*27 iyul 2023-cü il tarixində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində nazir müavini Araz Əzimov tərəfindən ölkəmizdə akkreditə olunmuş diplomatik korpus üçün brifinq keçirilib. XİN-dən "Unikal"a verilən məlumata görə, brifinq zamanı iştirakçılar post-münaqişə dövründə regionda mövcud vəziyyət və reallıqlar...*

Səh.2

## Şuşadan 148 yaşlı mətbuatımız üçün səslənən mesajlar



*Bu günlərdə Milli Mətbuatın 148-ci ildönümü qeyd edildi. 148 il əvvəl "Əkinçi" qəzeti ilə bu yola çıxan milli mətbuatımız hazırda inkişaf dövrünü yaşayır. Milli Mətbuat Günü ərəfəsi "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimi keçirildi. Xarici və yerli mətbuat əməkdaşlarının iştirak etdiyi bu mötəbər tədbirdə medianın inkişafı ilə...*

Səh.11

# “Söyülməyən müğənni qalmayıb”- Manaf Ağayev gileyləndi



***”Əvvəl heç bu qədər efir yox idi. Bir tək AzTV vardı, oranın efirinə çıxmaq üçün isə hər insanın başı üçün deyildi. Üç-dörd müğənni var idi ki, onlar AzTV-nin efirinə çıxa bilirdi. O zamanlar hər şey fərqli idi”.***

Bu sözləri verilişlərin birində qonaq olan müğənni Manaf Ağayev deyib. Sənətçi ötən illərlə müqayisədə müğənnilərə hörmət qoyulmadığını bildirib: “Yaşım az deyil, çox məsələlərin şahidi olmuşam. Hər zaman bir məsəl çəkirəm. Deyirəm ki, bir qanlı hadisə olardı, oraya isə mərhum müğənni Məmmədbağır Bağırzadəni aparardılar, söhbət bağlanardı. Çünki eldə ona çox böyük hörmət var idi. Tamaşaçılarda sənətə və müğənniyə sevgi var idi”.

Müğənni qeyd edib ki, indi isə hər şey dəyişilib: ”Söyülməyən müğənni qalmayıb. Gör, zamanə nə qədər dəyişib. Bunun da əsas səbəbi ilk növbədə sosial şəbəkələrdir. Əvvəllər sosial şəbəkələr yox idi. Bəlkə də olsaydı, indidən daha betər olardı”.

# "Müğənnilikdən yox, biznesdən qazanıram" - Natavan Həbibi



***”Qonorarsız iş görmürəm. Bütün işlərimdən qonorar alıram. Amma dəstəyim, yəni sponsor və təşkilat baxımından o qonorardan çox olur. Aktrisa kimi də istəyərəm ki, fəaliyyət göstərim. Bununla bağlı təkliflər var. Xoşuma gəlsə, bəlkə təklifi qəbul edərəm”.***

Bu sözləri müğənni Natavan Həbibi ”Gül kimi şou”da qonaq olarkən deyib. Uzun müddətdir efirə çıxmayan sənətçi qazancından danışıb: ”Qazancım bu sahədən deyil. Uzun illərdir ki, şəxsi biznesim var. Sənətlə bağlı işi yalnız təbim gələndə, istəyəndə görürəm. Toylara da çox zaman getmirəm. Yalnız istədiyim və tanıdığım insanların toylarına gedirəm və orada çıxış edirəm. Mənim də özüməməxsus ”rayder”im var. Restoranlarda konsert proqramları ilə çıxış edirəm, amma orada olan şou-proqramlara getmirəm. Evdən küçəyə çıxmaq istəmirəm. Yalnız vacib işim olanda çıxıram”.

Natavan şou-biznes nümayəndələri ilə münasibətindən söz açıb: ”Efirlərə çox çıxmağı sevmirəm. Kənara çəkilmək də olmur. Bütün verilişlərə də getmək olmur. Hansı müğənniyə manеə oluram ki? Hərdən hansısa məkanda 30-40 dəqiqəlik konsert proqramı ilə çıxış edirəm, sonra da gedirəm evə. Heç kimlə işim yoxdur və heç kimə dəymirəm, mane olmuram. Toylara gedib çörəyinizi əlinizdən almıram. Amma elə bil, yenə də nəsə düz etmirəm”.



# Brilliant Dadaşova: “Tikilən torbalardan, murdar əməllərdən xəbərsiz idim”

***”Mən anasız böyümüş, gözəgəlimli, bir az sevimli, mahnılar oxuyanam. Bəzən mükəmməl, bəzən kaprizli, bir az yaramaz... Birdən gördüm, gözlər üzərimdədir. Elə bildim ki, böyümüşəm, artıq tale öz əlimdədir. Alçaqlardan, düzüb-qoşulan iftiralardan xəbərim yox idi. Tikdikləri torbalardan, atılacaq ”palçıq”lardan xəbərsiz idim”.***

“Unikal” bizim.media-ya istinadən bildirir ki, bu sözləri xalq artisti Brilliant Dadaşova sosial şəbəkə hesabında paylaşdığı postda yazıb. Sənətçi ona şər, böhtan atanlardan söz açıb: ”Xəbərim yox cılız xislətli insanların murdar əməlindən, qazılan quyuların təməlindən. Elə bilirdim, güc yalnız bizi qoruyan qayalardadır. Qayaların üstündə gəzməkdən dizlərim qəlbim kimi hər zaman qanlı, yaralı olub. Ağacların başına dırmaşmaqdan başım daima bəlalı olub. Uşaqlıqdan Xəzərin dalğalarının əksinə üzdüyüm vərdişimlə dırnağımla, dişimlə gücə, qüvvəyə sinə gərməyə alışdım. Ömürboyu alın tərimlə, sənətimlə çalışdım. Bu minvalla dünyanı dolaşdım. Dərə, təpə çətinlikləri ruhumun gücüylə aşdım”.

# Ruhi Əliyevanın adından dələduzluq



***İş xanımı Ruhi Əliyevanın adından dələduzluq edilib.***

O, bu barədə özü məlumat yayıb. Ruhi Əliyeva feysbukda adına saxta hesab yaradıldığını və insanlara hədiyyə təklif edildiyini bildirib: ”Feysbukda adıma belə bir səhifə açıb canlı yayımda insanları aldadırlar. Xahiş edirəm, belə dələduzlara qarşı ehtiyyatlı olasınız”.

# Tarkan Bakıya gəlir

***Türkiyənin meqastarı Tarkan Bakıya gəlir.***

Müğənni bu barədə sosial media hesabında paylaşım edib. Tarkan tezliklə “Baku Crystall Hall”da səhnəyə çıxacağını bildirib. O, konsertin tarixi barədə məlumat verməyib.

Müğənni, həmçinin Qazaxıstan və Özbəkistanda konsert verəcəyini bildirib.

Xatırladaq ki, bu, 2017-ci ildə F1 çərçivəsində Bakıda konsert verən Tarkanın illər sonra Azərbaycanda ilk solo konserti olacaq.





## Rəsmi Bakıdan Aİ-nin ermənipərəst bəyanatına cavab

***Azərbaycan tərəfi Avropa İttifaqının bölgədə sülh və sabitliyin bərqərar olması, Ermənistanla sülh prosesi üzrə danışıqlara verdiyi dəstəyi yüksək qiymətləndirir.***

Bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borelin bölgədə vəziyyət barədə bəyanatını şərh edərkən deyib.

A.Hacızadə bildirib ki, buna baxmayaraq, Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borelin erməni tərəfinin yaydığı saxta təbliğat və siyasi manipulyasiyalara əsaslanaraq, 26 iyul tarixli bəyanatda bölgədə vəziyyətə dair sərgilədiyi yanaşma təəssüf doğurur.

"2020-ci ildə 44 günlük müharibədən sonra ölkəmizin milli təhlükəsizliyinə, ərazi bütövlüyünə və suverenliyinə təhdid olmaqda davam edən erməni silahlı qüvvələrinin ərazilərimizdən tam olaraq çıxarılmaması ilə yanaşı, Laçın yolundan istifadə etməklə Ermənistanın qeyri-qanuni fəaliyyətlər aparmasına, Azərbaycan ərazilərinə silah-sursat, eləcə də mina daşınmasına, Azərbaycanın təbii sərvətlərinin Ermənistana aparılmasına Azərbaycan tərəfinin etirazlarına heç zaman məhəl qoyulmaması və gördüyü legitim tədbirlərin Laçın yolunun bağlanması kimi təqdim edilməsi kökündən yanlışdır.

Eynilə, Beynəlxalq Ədalət Məhkəməsinin məlum qərarlarının açıq-aydın şəkildə yanlış şərh edilməsinin heç bir nəticə verməyəcəyi aydın olmalıdır. Azərbaycanın öz sərhədlərinə nəzarət etmək hüququnu bir daha təsdiq edən və Ermənistanın Laçın sərhəd nəzarət buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı tələbinin əsassız olduğunu sübut edən 6 iyul tarixli qərar bir daha göstərib ki, Azərbaycanın öz təhlükəsizliyini qoruması legitim tədbirdir.

Ötən ilin dekabr ayından etibarən Ermənistanın qeyri-qanuni fəaliyyətinə qarşı etiraz aksiyalarına baxmayaraq, gün ərzində Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) daxil olmaqla, yüzlərlə nəqliyyat vasitəsinin Laçın yolundan keçidi həyata keçirilib. Azərbaycan tərəfindən Laçın sərhəd buraxılış məntəqəsinin təsis edilməsindən sonra da gün ərzində məntəqədən tənzimlənən və şəffaf qaydada hər iki istiqamətə keçid təmin olunub. Laçın buraxılış məntəqəsinə qarşı 15 iyun tarixində silahlı hücuma, qaçaqmalçılıq cəhdlərinə, eləcə də 26 iyul tarixində "humanitar yük" adı altında avtomobil konvoyları göndərilməsi təxribatına baxmayaraq, Azərbaycan tərəfi bölgədə fəaliyyət göstərən BQXK ilə əməkdaşlığını davam etdirərək erməni sakinlərin tibbi məqsədlə keçidini təşkil edib, BQXK vasitəsilə tibbi yüklərin gətirilməsinə imkan yaradıb.

Daha böyük yüklərin Azərbaycan ərazisinə gətirilməsinə gəldikdə, Ermənistandan irəli gələn təhdidlər nəzərə alınmaqla, "Ağdam-Xankəndi" və digər alternativ yollardan istifadə edilməsi təklifi ilə çıxış edib.

Bu təklifin Avropa İttifaqı, BQXK daxil, beynəlxalq tərəfdaşlar tərəfindən müsbət qarşılanmasına baxmayaraq, Ermənistan tərəfinin və özlərini yerli erməni sakinlərin nümayəndələri kimi təqdim edən şəxslərin bunmane olması, yolları bağlayaraq yüklərin daşınmasının qarşısını alması, "gərgin humanitar vəziyyət" barədə spekulyasiyaların siyasi manipulyasiyadan başqa bir şey olmadığını sübut edir.

Azərbaycan beynəlxalq öhdəliklərinə sadiq olmaqla yanaşı, öz ərazisində qeyri-qanuni fəaliyyətlərə legitimlik qazandırılması cəhdlərinin qarşısını qətiyyətlə alacaq", - XİN rəsmisi açıqlamasında qeyd edib.

## TƏBRİK...

**30 iyul əziz dostum Yaqub Ələkbərovun və oğlu Həsən Ələkbərovun doğum günüdür. Bu münasibətlə onları ürəkdən təbrik edir, iş və şəxsi həyatlarında uğurlar arzu edirəm. Hörmətlə, Hüseyn İsgəndərov.**

# Əli Əsədovdan mübahisə doğuran qərar

## Bakıda parkinq qiymətlərinin bahalaşması şəhərin mərkəzində sıxlığı aradan qaldıracaqmı?



***Yola saldığımız həftə Nazirlər Kabinetinin "Nəqliyyat vasitələrinin parklanmasına görə ödənişin məbləği" barədə qərarı qüvvəyə minib.***

Bununla bağlı Baş nazir Əli Əsədov iyunun 25-də qərar imzalayıb.

Qeyd edək ki, qərar dövlət avtomobil yollarında təşkil edilmiş parklanma yerlərinə şamil edilir.

"Nəqliyyat vasitələrinin parklanmasına görə ödənişin məbləği" yalnız dövlətə məxsus parkinqlərdə qüvvədə olacaq. Avtomobillərin parklanmasına görə maliyyə dövriyyəsinin şəffaflaşdırılması, rəqəmsallaşmanın və istifadə rahatlığının təmin edilməsi məqsədilə ödənişlərin yalnız nağdsız qaydada həyata keçirilməsi nəzərdə tutulur.

Lakin Ə.Əsədovun qərarı cəmiyyətdə və mediada birmənalı qarşılanmayıb. Bu isə qətiyyən səbəbsiz deyil.

Baş nazirin qərarından belə məlum olur ki, parkinq qiymətləri Bakının mərkəzində 1 saata görə 1 manatdan başlayaraq, mərkəzdən kənar zonalara keçdikcə, 70, 40, 30 qəpik müəyyənləşdirilib. Bu o deməkdir ki, qiymətlər, məsələn, paytaxtdakı iri ticarət mərkəzlərinin dayanacaqlarındakı onsuz da yüksək olan hazırkı qiymətlərdən də xeyli baha olacaq. Əgər əvvəllər bu dayanacaqlarda birinci saata görə 1 manat, sonrakı saat intervallarında isə daha az məbləğ ödənirdisə, indi hər saata görə 1 manat ödənməli olacaq.

Beləliklə, şəhərin mərkəzi hissəsindəki yolkənarı dayanacaqlardan istifadə etmək istəyən avtomobil sahibləri gün ərzində ən azı 2-3 manatlarından keçməli olacaq. Hələ paytaxtın mərkəzi hissəsində yaşayan, işləyən vətəndaşları demirik. Hər gün işə avtomobillə gələn şəxsin ayda 180-200 manat, və yaxud burda yaşayan avtomobil sahibinin ayda 250-300 manat dayanacaq haqqı ödəməsi reallıqdan çox uzaqdır.

Bundan başqa, yol kənarlarında avtodayanacaqların təşkili ictimai nəqliyyatın hərəkətinə əlavə problem yaradacağı ehtimalı da az deyil. Onsuz da ictimai nəqliyyatdan hazırda hər kəs narazıdır. Bu cür dayanacaqların təşkili təbii ki, ictimai nəqliyyatın intensiv hərəkətinə az və çox dərəcədə problem yaradacaq.

"Azpolitika.info"nun mövzu ilə bağlı hesablaması nəticəsində isə məlum olub ki, ayda ortalama 25 iş günü və hər gün saatı bir manatdan 8 iş saatı nəzərdə tutsaq, bu, aya 200 manat edir. Yəni, şəhərdə işləyən vətəndaş ayda azı 200 manat parklamaya görə pul ödəməlidir. Azərbaycanda minimum əmək haqqı 345 manat, orta əmək haqqı isə rəsmi olaraq 830 manatdır. Deməli, maşını olan vətəndaş üçün gündəlik parkinq xərci minimum əmək haqqının təxminən 60 faizi, orta aylıq əmək haqqının isə az qala 25 faizini təşkil edəcək.

Hesab edilir ki, Nazirlər Kabinetinin məlum qərarında məqsəd əgər şəhərdə nəqliyyatın sıxlığını azaltmaqdırsa, bunun üçün ilk növbədə bərbaddan da bərbad durumda olan ictimai nəqliyyatı qaydaya salmaq lazımdır. Bakının ətraf qəsəbələrindən işə öz ucuz avtomobili ilə gələnlərin böyük əksəriyyəti bunu kefindən etmir. Normal ictimai nəqliyyat olsa, heç kim öz pulunu və əsəblərini sərf edib şəxsi avtomobili ilə mərkəzə gəlməz.

"İctimai nəqliyyat, metro normal işləsə, insanlar şəxsi avtomobildən, hətta taksidən belə imtina edərlər. Bundan əlavə, vəzifəli şəxslər, əsasən, dövlət qurumlarının rəhbərləri mobilləşməyə üstünlük verməli və moped, velosiped, elektroskuterlərdən istifadə etməlidirlər ki, nümunə olsunlar" - nəqliyyat eksperti Eldəniz Cəfərov Baş nazirin məlum qərarını şərh edərkən doğru olaraq vurğulayıb.

Digər tərəfdən, hazırda paytaxtdakı ən nəzarətsiz sahələrdən biri parklama yerləridir. Yerli medianın da qeyd etdiyi kimi, onların nə rəsmi xəritəsi, nə bəlli yerləri, nə də sahibləri məlumdur. Bilinmir, hansı dövlətindir, hansı özəldir və sair. Burada işləyən imkansız, yaşlı adamların isə böyük əksəriyyətinin nə əmək müqaviləsi var, nə də buna uyğun sosial təminatı. Bu gün parklanma nəzarətçiləri faktiki qeyri-leqal işçilərdir və çalışdıqlarının qarşılığı olaraq onların təqaüdü, sosial təminatı həyata keçirilmir. Həmçinin, parklanmaya nəzarət edən müasir elektron cihazlar, avadanlıqlar olmalıdır, parklanma yerlərinin ünvanları şəffaf şəkildə müvafiq qurum tərəfindən müəyyən və elan edilməlidir, parklanma nöqtələrindən yığılan pulun normal şəkildə vergisi ödənməlidir. Lakin bunların heç biri mövcud deyil. Nazirlər Kabineti isə sözügedən sahədə nizam-intizam, qayda-qanun yaratmaq əvəzinə parkinq qiymətlərini bahalaşdırmaq yolu tutub. Nəticədə KİV-də və ictimaiyyətdə belə qənaət ortaya çıxıb ki, Bakıda parkinq yerlərini öz aralarında bölüşdürənlərin maraqları daha öndə gəlir.

Yaranmış mübahisəli situasiyada kimin - Nazirlər Kabinetinin, yoxsa ictimaiyyətin haqlı olduğunu isə zaman göstərəcək. Ona görə də bir az gözləyib nəticəni görməkdə fayda var...

***Toğrul Əliyev***

# Ermənilərin məkrli planı danışıqlar prosesini sabotaj etməyə hesablanıb

***Ermənistan Azərbaycanla sərhəddə təxribat xarakterli fəaliyyətini davam etdirməkdədir. Belə ki, qarşı tərəf Azərbaycanla razılaşdırmadan yük maşınlarını sərhəd məntəqəsinə yığır.***

Ermənistan növbəti dəfə nəqliyyat vasitələrini Laçın dövlət sərhədinin keçid məntəqəsində cəmləşdirməklə siyasi şou yaradır. Təbii ki, bu, manipulyasiyadır və növbəti təxribat cəhdidir. Azərbaycan dəfələrlə bəyan edib ki, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərə daşımalar üçün Ağdam-Xankəndi yolundan istifadə oluna bilər. Yolun texniki və təbii göstəriciləri, xüsusilə işğaldan sonra yenidən qurulmaqda olan Bərdə-Ağdam yolu malların daha sürətli və səmərəli şəkildə çatdırılmasına imkan yaradır. Özünü qondarma rejimin təmsilçiləri adlandıran şəxslərin bu yoldan istifadədən imtina etmələri başadüşülən deyil. Əslində isə bu, rasizmin açıq təzahürü və beynəlxalq ictimai rəyi çaşdırmaq cəhdidir.




Azərbaycan Xarici İşlər Nazirliyi son durumla bağlı mövqeyini ifadə edib. Bildirilib ki, Azərbaycan Respublikasının öz sərhədlərinə nəzarət və Ermənistanın təxribatlarının qarşısını almaq məqsədilə təsis etdiyi Laçın sərhəd buraxılış məntəqəsinin mövcudluğunu həzm edə bilməyən Ermənistan tərəfinin ölkəmiz ilə razılaşdırmadan Azərbaycanın suveren ərazilərinə "humanitar yük" adı altında avtomobil konvoylarını göndərməsi Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qəsddir, Laçın sərhəd keçid məntəqəsinə qarşı növbəti təxribatdır: "Ermənistan tərəfinin Moskvada, o cümlədən, hazırkı vəziyyətlə bağlı ətraflı müzakirələrin aparıldığı danışıqlardan dərhal sonra belə bir addım atması bu ölkənin prosesdə səmimi olmadığını, vəziyyəti gərginləşdirməklə beynəlxalq ictimaiyyəti çaşdırmaq niyyətində olduğunu göstərir. 15 iyun tarixində Laçında sərhədçilərimizin atəşə tutulması, qaçaqmalçılıq hallarına cəhd edilməsi daxil olmaqla, Ermənistan tərəfinin sözügedən təxribatı, bu ölkənin məkrli təcavüzkar siyasətdən əl çəkmədiyinin bariz nümunəsidir. Bu təxribat bir daha göstərir ki, Ermənistanın "bölgədə gərgin humanitar vəziyyət" iddiaları bu ölkənin manipulyasiyası və qeyri-qanuni fəaliyyətləri davam etdirmək niyyətindən başqa bir şey deyil. Azərbaycan tərəfinin erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün "Ağdam-Xankəndi" yolundan və digər alternativ yollardan istifadə daxil olmaqla, bir sıra təkliflər irəli sürməsinə və bu təkliflərin Avropa İttifaqı, Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən dəstəklənməsinə baxmayaraq, erməni tərəfinin bütün təkliflərə, eləcə də Azərbaycanın qeyd etdiyi yollar vasitəsilə BQXK tərəfindən yüklərin daşınmasına qarşı çıxması, müvafiq humanitar fəaliyyətə maneçilik törədilməsi, alternativ yollara beton maneələr düzməklə əraziyə girişin bloklaması onların humanitar vəziyyət barədə iddialarının siyasi şantaj olduğunu göstərir. Bu addımlar, humanitar fəaliyyəti siyasiləşdirməklə yanaşı, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün tanınmasına dair bəyanatlarla ziddiyyət təşkil edir. Qeyd edilən təxribatda Avropa İttifaqının Ermənistandakı Missiyasının və diplomatik korpusun da alət edilməsi, bunun əvvəlcədən planlaşdırılmış addım olduğunu nümayiş etdirib. Bu kimi təxribatlardan əl çəkməyi Ermənistan tərəfindən bir daha tələb edirik".

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Aİ ölkələrinin, həmçinin Türkiyə, ABŞ və İsveçrə səfirlərinin iştirakı ilə keçirilən görüşdən sonra yazdığı tvitdə bildirib ki, Xankəndidəki separatçıların marionet "liderləri" yerli əhalini öz siyasi ambisiyaları naminə girov saxlayır. "Teatral səhnələr və yük maşınlarını nümayiş xətrinə Laçın yoxlanış məntəqəsinə gətirməkdənsə, Ermənistan Azərbaycana qarşı ərazi iddialarına son verməli, öz qüvvələrinin elementlərini Azərbaycanın Qarabağ regionundan çəkməli və qanunsuz marionet rejimin maliyyələşdirməsini dayandırmalıdır", - Hikmət Hacıyev qeyd edib.

Prezidentin köməkçisi onu da qeyd edib ki, Qarabağdakı bütün qanunsuz qüvvələrin tərksilah edilməsi təmin olunmalıdır. O qeyd edib ki, beynəlxalq ictimaiyyət Ağdam-Xankəndi yolunun istifadəsi və Qarabağın erməni sakinlərinin Azərbaycana reinteqrasiyası ilə bağlı aydın siqnal göndərməlidir.

"Ermənistan Azərbaycana qarşı ərazi iddialarına son qoymalı, qüvvələrinin bir hissəsini Azərbaycanın Qarabağ bölgəsindən çıxarmalı və qanunsuz marionet rejimini maliyyələşdirməyi dayandırmalıdır. "Təkcə Laçın yolundan istifadə etməkdə israrlı olmaq, amma Ağdam yolundan imtina etmək, yolu bağlamaq, siyasiləşdirmək yolverilməzdir. Beynəlxalq ictimaiyyət Ağdam-Xankəndi yolundan istifadə edilməsi və Qarabağın erməni əhalisinin Azərbaycana reinteqrasiyası ilə bağlı aydın ismarış verməlidir. Başqa yol yoxdur! Oyun bitdi!", - H.Hacıyev əlavə edib.

Politoloq Elxan Şahinoğlu hesab edir ki, Ermənistan hakimiyyətinin humanitar yüklərlə dolu maşın karvanını Laçın istiqamətinə yönəltməsi hiyləgər plandır və üzərində müxtəlif mərkəzlər çalışıblar. Onun fikrincə, Rusiya və İran Qərblə çəkişsələr də, bu məsələdə ortaq mövqedən çıxış edir, bir qrupu Qarabağ separatçılarına açıq, digər qrupu gizli dəstək verdiyini nümayiş etdirir: "Azərbaycana qarşı müxtəlif güclər birləşiblər. Bu ölkəmizə qarşı psixoloji və informasiya savaşının tərkib hissəsidir. Beynəlxalq aləmin diqqətini Rusiya-Ukrayna müharibəsindən Qarabağa çəkmək istəyirlər. Nə planlaşdırdıqlarından asılı olmayaraq yükləri Laçın yolundan keçirməyə nail olsalar, davamı gələcək. Ona görə də Ağdam istiqamətindən geri addım atmamalıyıq. Kimin nə deməsindən asılı olmayaraq, xarici ölkədən yük məmləkətimizə Azərbaycanın müəyyənləşdirdiyi məntəqədən keçirilməlidir".

MCP sədrinin müavini Məhəmməd Əsədullazadə isə bildirib ki, Ermənistan Azərbaycana rəsmən müraciət etmədən humanitar yük adı altında Xankəndinə maşın kolonunu təşkil etməsi, ölkəmizin ərazi bütövlüyünü tanımadığının nümayişidir. Bununla da beynəlxalq müstəvidə Azərbaycana qarşı təzyiqlərin artırılmasına hesablanıb: "Baş verənlərin arxasında Fransa dayansa da, bu proses Rusiyanın maraqlarına xidmət edir. ABŞ və Avropa İttifaqı bu məsələdə ərazi bütövlüyü məsələsində mövqe ortaya qoymalıdır. Azərbaycan Laçın yolunda sərhəddə NBM qurduqdan sonra, heç bir dövlətin vətəndaşı və yük maşını Azərbaycan ərazisinə qanunsuz daxil ola bilməz. Ermənistanın bu təxribatçı siyasəti birbaşa danışıqlar prosesini sabotaj etməkdir. Azərbaycan qəti şəkildə yük maşınlarının Laçın NBM-dən keçidinə icazə verə bilməz. Ağdam -Xankəndi yolu ilə yüklərin daşınması üçün yol açıqdır. Ermənistanın Azərbaycan ərazisinə keçidə cəhd etməsi tam qanunsuzdur. Bütövlükdə bu addım separatizmə dəstəkdir. Ona görə də buna qətiyyən icazə vermək olmaz".

***M.İbrahimli***



# "Hanı sərhədlərin bağlı olmasının daxili turizmə müsbət təsiri?!" - Ekspert

***"Azərbaycanda bəzi rəsmilər öz çıxışlarında quru sərhədlərin bağlı qalmasına haqq qazandırmaq üçün deyirdilər ki, bu hal daxili turizmin inkişafına təkan verir, turizm obyektlərinin inkişafına səbəb olur. Rəqəmlər, rəsmilərdən fərqli olaraq yalan danışmır".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı ekspert Natiq Cəfərli deyib.

"2023-cü ilin yanvar-iyun aylarında mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin birdəfəlik tutumundan istifadə 16,6% səviyyəsində olub - sadə dildə desək, nömrələrin 83,4%-i boş qalıb. 2022-ci ilin eyni dövründə bu rəqəm 12,4% olub, yəni 2022-23-cü illərin ilk yarısında quru sərhədlər bağlı olsa da otellərdə yerlərin 85%-ə yaxını boş qalıb - bəs hanı sərhədlərin bağlı olmasının daxili turizmə müsbət təsiri?!", - Natiq Cəfərli bildirib.

Onun sözlərinə görə, quru sərhədlərin bağlı olması ölkənin turizm sektoruna çox böyük ziyan vurur: "İndi bəziləri deyə bilər ki, rəsmi rəqəmlər reallığı əks etdirmir, yəqin rəsmiləşmiş nömrələrin sayı azdır, otellər vergidən yayınmaq üçün qonaqları qeydə almırlar - hə, o zaman da rəsmilərin, "ölkə iqtisadiyyatı "ağarır", sənədləşmə, rəsmi fəaliyyət artır", sözü yalan çıxır".

# "Yeni dəhlizin Azərbaycan üçün mənfi təsiri yoxdur" - Açıqlama

***"Yeni taxıl dəhlizi əvvəlki ilə eyni anlama gəlməməlidir. Ona görə ki, burada bilavasitə söhbət Ukraynanın işğal olunan ərazilərindəki əldə olunmuş taxılın tadarükündən gedir".***

Bunu "Unikal"a iqtisadçı Eldəniz Əmirov Rusiyanın yeni taxıl dəhlizi planları haqqındakı açıqlamasında deyib.

Ekspertin sözlərinə görə, Rusiya Ukrayna taxılını şimal-cənub dəhlizi ilə daşımaq istəyir: "Əvvəlki taxıl sazişində isə məhz Ukraynanın özünün istehsal etdiyi taxılın dünya bazarlarına çıxardığı dəhlizdən söz gedirdi. Rusiyanın hazırkı taxıl dəhlizi anlayışı isə, əslində, şimal-cənub dəhlizinin bir formasıdır. Çünki bu dəhliz əvvəllər məhz Hindistandan çıxaraq Aralıq dənizi, Cəbəllütariq boğazı və Atlantik okeanı ilə Rusiyanın şimalına yönəlirdi. Daha sonra bu dəhliz okean üzərindən deyil, Hindistandan İran-Azərbaycan-Rusiya olmaqla uzanan bir dəhliz idi. Hazırda Rusiyanın təşviq etdiyi də məhz bu dəhlizdir".

Eldəniz Əmirov həmçinin qeyd edib ki, dəhlizin Azərbaycandan keçməsi ölkə üçün fayda verə bilər: "Bu dəhliz təbii ki, Azərbaycan üçün öz faydasını verəcək. Əgər bu reallaşarsa, bütün hallarda yüklərin Azərbaycan üzərindən daşınmasının bizim üçün hər hansı mənfi təsiri yoxdur. Sadəcə olaraq bu dəhlizin perspektivinin nə qədər olması sual altındadır. Çünki şimal-cənub dəhlizi uzun müddətdir müzakirə olunsa da, hələ də konkret nəticənin əldə edilməməsi bu taxıl koridorunun da şimal dəhlizinə paralel və ya onun üzərindən salınması perspektivini sual altında qoyur".

Qeyd edək ki, Rusiya dayandırdığı Qara Dəniz Taxıl Sazişini yeni dəhlizlə bərpa etmək istədiyini açıqlamışdı ki, bu koridor da Azərbaycan və İrandan keçərək Hindistana çatır.

***Ağarza Elçinoğlu***

# Prezidentdən Mövlud Süleymanlı ilə bağlı sərəncam



***Mövlud Süleyman oğlu Balakişiyev (Mövlud Süleymanlı) "Şərəf" ordeni ilə təltif edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

O, Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə təltif olunub.

# Hikmət Hacıyev Simonyana cavab verdi



***Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistan parlamentinin sədri Alen Simonyana cavab verib.***

"Unikal" xəbər verir ki, Hikmət Hacıyev bununla bağlı "Twitter"də paylaşım edib.

"Ermənistanın siyasi rəhbərliyi sözlə oynamaq əvəzinə, Laçın yolu ətrafında beynəlxalq ictimaiyyəti aldatmağa yönəlmiş manipulyasiya, dezinformasiya və yanlış məlumatlandırma oyunlarına, təbliğat kampaniyasına son qoymalıdır! Ağdam-Xankəndi yolu açıq və işləkdir!", - paylaşımda qeyd olunub.

# Ermənistanın manipulyasiyaları barədə xarici ölkələrin parlamentlərinə müraciət ünvanlandı



***İyulun 27-də Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərləri xarici ölkələrin parlamentlərinə müraciət ünvanlayıblar.***

"Unikal" xəbər verir ki, bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi məlumat yayıb.

Müraciətdə Azərbaycanın Qarabağ bölgəsində Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi ərazilərdə yaşayan erməni milliyyətli sakinlərin guya ərzaq və dərman çatışmazlığı ilə üzləşməsi barədə son dövrdə yayılan məlumatların beynəlxalq ictimaiyyəti çaşdırmağa yönələn və Azərbaycan Respublikasının ərazi bütövlüyünü və suverenliyini hədəf alan siyasi manipulyasiya olduğu bildirilir. Qeyd olunur ki, Xankəndi şəhərinə və ətraf kəndlərə humanitar yüklərin daşınması üçün Azərbaycanın təklif etdiyi Ağdam-Xankəndi yolunun separatçılar tərəfindən bağlanması bu kampaniyanı başlatmış qüvvələrin həqiqi niyyətlərindən xəbər verir. Bildirilir ki, məqsəd Qarabağın erməni sakinlərinin Azərbaycan cəmiyyətinə yenidən inteqrasiya etməsinin qarşısını almaq və ya bu prosesi mümkün qədər uzatmaqdır.

Müraciətdə vurğulanır ki, Ermənistan rəhbərliyi Qarabağı Azərbaycan ərazisi kimi tanıdığını dəfələrlə bəyan etmişdir, odur ki, etnik ermənilər üçün ərzağın və digər məhsulların Ermənistandan gətirilməsinə zərurət yoxdur. Laçın yolu ilə bağlı vəziyyətə gəlincə, bu yol da Azərbaycanın suveren ərazisinin tərkib hissəsidir və ona görə də Azərbaycan öz ərazisində, öz vətəndaşlarının istifadəsi üçün sərhəd-keçid məntəqəsi təsis etmişdir. Bildirilir ki, Beynəlxalq Ədalət Məhkəməsinin son qərarında da Azərbaycanın bu hüququ təsbit olunmuşdur. Bunu həzm edə bilməyən Ermənistan tərəfindən Azərbaycan sərhədçisinə atəş açılması, dövlət bayrağımıza qarşı təxribat törədilməsi, Laçın yolundan sui-istifadə hallarının davam etməsi səbəbindən Laçın yolundan istifadəyə məhdudiyyət törədən tərəf məhz Ermənistandır. Ermənistan tərəfi həqiqətən Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirsə, Ağdam-Xankəndi yolundan yüklərin daşınmasına etiraz etməməli və reinteqrasiya prosesinə mane olmamalıdır.

Müraciətin sonunda qeyd olunur ki, şərh edilənlərlə əlaqədar beynəlxalq ictimaiyyət də məsuliyyətli yanaşma nümayiş etdirməli, Ermənistan tərəfinin manipulyasiyalarına aldanmamalı və konstruktiv dialoqa sadiqlik göstərməyin zəruriliyini Ermənistana izah etməlidir.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Diplomatlar Laçın yolu ilə bağlı XİN-ə çağırıldı

## Araz Əzimov: "Ermənistan həqiqətən Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirsə..."

***27 iyul 2023-cü il tarixində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində nazir müavini Araz Əzimov tərəfindən ölkəmizdə akkreditə olunmuş diplomatik korpus üçün brifinq keçirilib.***



XİN-dən "Unikal"a verilən məlumata görə, brifinq zamanı iştirakçılar post-münaqişə dövründə regionda mövcud vəziyyət və reallıqlar, Azərbaycan və Ermənistan arasında sülh prosesi barədə məlumatlandırılıb.

Nazir müavini Araz Əzimov, müharibədən sonra Azərbaycanın sülh təşəbbüsü ilə çıxış edən tərəf olduğunu, beynəlxalq hüquq norma və prinsiplərinə, ələlxüsus dövlətlərin suveren bərabərliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə uyğun şəkildə ikitərəfli əsasda Ermənistanla münasibətlərin normallaşmasına hazır olduğunu bəyan etdiyini diqqətə çatdırıb.

İlk gündən bu mövqeyin hər kəsə aydın olduğu və prosesin üç istiqaməti, yəni sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və regional kommunikasiyaların açılması istiqamətində həll yollarının danışıqlar masasında olduğu bildirilib. Bu gün Azərbaycanın sülh niyyətinin ən aydın təzahürünün tərəfimizdən işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, habelə iki ölkənin sərhədinə yaxın ərazilərdə tikilən hava limanlarının olduğu qeyd edilib. Bunun qarşılığında isə Ermənistanın erməni əsilli sakinlərin yaşadığı ərazilərimizdə hərbi təxribatlar törətməsinin, radiodalğalar ilə hava limanları vasitəsilə uçuşların həyata keçirilməsinə maneçilik törətməsinin bu ölkənin əsl niyyətini bəlli etdiyi diqqətə çatdırılıb.

Sülh gündəliyi ilə bağlı Azərbaycan tərəfindən sərgilənən aydın mövqeyə baxmayaraq, Ermənistan tərəfindən heç bir beynəlxalq hüquq normasına və məntiqə sığmayan, əsası olmayan tələblərin irəli sürülməsi, Azərbaycanın daxili işlərinə müdaxilə cəhdlərinin edilməsinin qəbuledilməz olduğu bildirilib. Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan tərəfindən rəsmi şəkildə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tanınması ilə bağlı bəyanatın verilməsinə baxmayaraq, əməldə Ermənistan tərəfindən atılan addımların birbaşa ərazi bütövlüyümüz və suverenliyimizə qarşı olduğu, ölkəmizin daxili işlərinə qarışmaq cəhdləri ilə müşayiət olunduğu diqqətə çatdırılıb. Bu xüsusda, atılan addımların normallaşma və sülh prosesini ləngitməyə, yeni böhranlar və sülhə xidmət etməyən müzakirələr yaratmağa hesablandığı və bu baxımdan sülhə deyil, Ermənistanın təhlükəli məqsədləri və gündəliyinə xidmət etdiyi bildirilib.

Laçın yolu ilə bağlı vəziyyətdən bəhs edən nazir müavini, hər şeydən əvvəl bu yolun da Azərbaycanın suveren ərazisinin tərkib hissəsi olduğunu vurğulayıb və bu xüsusda, Azərbaycanın öz ərazisində, öz vətəndaşlarının istifadəsi üçün sərhəd-keçid məntəqəsi təsis etdiyini bildirib. Beynəlxalq Ədalət Məhkəməsinin son qərarında da bu hüququn təsbit olunduğu diqqətə çatdırılıb. Bunu həzm edə bilməyən Ermənistan tərəfindən isə Azərbaycan sərhədçisinə atəş açıldığı, dövlət bayrağımıza qarşı təxribat törədildiyi, Laçın yolundan sui-istifadə hallarının davam etdirildiyi vurğulanaraq, Laçın yolundan istifadəyə məhdudiyyət törədən tərəfin Ermənistan olduğu diqqətə çatdırılıb. Azərbaycan tərəfindən tibbi məqsədlər ilə əlaqədar yoldan erməni sakinlərin istifadəsi üçün şərait yaradıldığı, daha çox məhsulların tədarükü üçün isə onların cəmiyyətimizə reinteqrasiyasına töhfə verə biləcək "Ağdam-Xankəndi" yolundan istifadənin təklif olunduğu diqqətə çatdırıb.

Ermənistan tərəfinin isə bir tərəfdən yerli erməni əhalinin bu imkanlardan istifadəsinin qarşısını aldığı, digər tərəfdən isə "humanitar yardım" adı ilə nümayişkaranə şəkildə daxili işlərimizə müdaxilə etdiyi, yaradılan şoular ilə beynəlxalq ictimaiyyəti yanlış yönləndirdiyi bildirilib. Vurğulanıb ki, Ermənistan tərəfi həqiqətən Azərbaycan ərazi bütövlüyünü dəstəkləyirsə, "Ağdam-Xankəndi" yolundan yüklərin daşınmasına etiraz etməməli və reinteqrasiya prosesinə maneçilik törətməməlidir.

Bu xüsusda, beynəlxalq ictimaiyyətin məsuliyyətinin vacibliyini qeyd edən nazir müavini, Ermənistan tərəfinin manipulyasiyalarına aldanıb bəyanatlar verməzdən öncə, sözügedən bəyanatların nəyə xidmət edəcəyinin düşünülməli olduğunu, habelə suverenlik və ərazi bütövlüyümüzə zidd addımlardan, o cümlədən yanlış terminologiyadan çəkinilməsinin vacibliyini vurğulayıb.

Sülh danışıqlarının təşkilində dəstək göstərən ölkələrə təşəkkür ifadə olunub, habelə beynəlxalq ictimaiyyət tərəfindən Ermənistana konstruktiv dialoqa sadiqlik göstərilməsinin izah olunmasının əhəmiyyəti qeyd edilib.

Daha sonra brifinq sual-ca-

# Mikayıl Cabbarov SOCAR-ın Müşahidə Şurasını topladı

***Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Müşahidə Şurasının növbəti iclası keçirilib.***



"Unikal" xəbər verir ki, SOCAR-ın Müşahidə Şurasının sədri, iqtisadiyyat naziri Mikayıl Cabbarovun sədrliyi ilə keçirilən iclasda SOCAR-ın 2022-ci il büdcəsinin icrası və maliyyə-təsərrüfat fəaliyyəti barədə müzakirə aparılıb, ötən il şirkətin maliyyə göstəricilərinin əhəmiyyətli dərəcədə artdığı vurğulanıb.

İclasda idarəetmə strukturunun təkmilləşdirilməsi, səmərəliliyinin daha da yüksəldilməsi məqsədilə yeni əməliyyat modeli təsdiq olunub.

Müşahidə Şurasının iclasında, həmçinin şirkətin 2023-cü ilin yarımillik fəaliyyəti üzrə nəticələr nəzərdən keçirilib, 2024-cü il və sonrakı 3 il üçün büdcə proqnozları və gündəlikdə duran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Bu xüsusda, xam neft və qaz kəşfiyyatı və hasilatı sahəsində effektivliyin artırılması, şirkətin "yaşıl enerji" istehsalında fəaliyyətinin gücləndirilməsi, innovativ və rəqəmsal texnologiyaların tətbiqi, biznes dayanıqlılığının və insan kapitalının inkişaf etdirilməsi istiqamətlərində görülən işlər və gələcək hədəflər barədə müzakirə aparılıb.

# Müharibə veteranlarının təhsil haqqı dövlət tərəfindən ödəniləcək

***Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) təhsil səviyyələrində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslərin təhsil müddəti ərzində təhsil haqqı 2023/2024-cü tədris ilindən etibarən Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi təhsil xərcləri miqdarında dövlət büdcəsi vəsaiti hesabına ödəniləcək.***



"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı müvafiq sərəncam imzalayıb.

Nazirlər Kabineti sosial müdafiəyə xüsusi ehtiyacı olan bir sıra şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi ilə əlaqədar normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təklifləri iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

Bu Sərəncam 2023-cü il sentyabrın 1-dən qüvvəyə minir.

# BQXK-dən azərbaycanlı əsirlərlə bağlı yeni açıqlama

***Ermənistanda saxlanılan azərbaycanlı hərbçilər Aqşin Bəbirov və Hüseyn Axundovla hələ də görüş keçirilməyib.***

Bu barədə "Unikal"a Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Bakı ofisindən məlumat verilib.

"Bu ay ərzində BQXK azərbaycanlı əsirlərlə görüş keçirməyib. Əlavə məlumat olduqca ictimaiyyətə veriləcək", - deyə bildirilib.

Sonuncu dəfə 13 iyun tarixində Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) nümayəndələri Ermənistanda saxlanılan iki Azərbaycan vətəndaşına baş çəkiblər.

Xatırladaq ki, Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən Azərbaycan ordusunun itkin düşmüş əsgərləri - 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu Ermənistan tərəfindən əsir götürülüb.

Aqşin Bəbirov və Hüseyn Axundov "Ermənistanın dövlət sərhədini qanunsuz keçməkdə, odlu silah və döyüş sursatı daşımaqda" ittiham olunurlar, onlar həbs edilib. Qondarma məhkəmə prosesində Aqşin Bəbirova 11,5 il, Hüseyn Axundova isə 20 il müddətinə həbs cəzası verilib.



# ƏƏSMN-də kollegiya iclası keçirildi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə verdiyi tapşırıqlara uyğun olaraq, sosial islahatların davam etdirilməsi, yeni sosial paketin hazırlanması əsas vəzifələrdən biri kimi qarşıya qoyulub.***



"Unikal" xəbər verir ki. bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev nazirlikdə keçirilən kollegiya iclasında bildirib.

"Böyük Qayıdış"a dair Dövlət Proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərə köçürülmüş vətəndaşların aktiv məşğulluq tədbirlərinə cəlb edilməsinin prioritet istiqamətlərdən biri olduğu vurğulanıb. Həmin şəxslərin daimi məşğulluğunun təmin edilməsi üçün onların peşə hazırlığı kurslarına cəlb edilməsinin əhəmiyyəti qeyd edilib.

Digər prioritet istiqamət kimi həmin ərazilərdə sosial infrastruktur layihələrinin həyata keçirilməsi olduğu bildirilib. Bu istiqamətdə Cəbrayılda DOST mərkəzinin və Peşə Hazırlığı Mərkəzinin, Kəlbəcərdə reabilitasiya mərkəzinin və digər işğaldan azad edilmiş rayonlarda DOST filiallarının yaradılacağı diqqətə çatdırılıb.

S.Babayev Naxçıvan Muxtar Respublikasında sosial sahədə idarəçilik və xidmətlər sistemində yeniliklərin tətbiqi, sosial infrastrukturun müasir tələblərə uyğun qurulması, sosial xidmətlərin əlçatanlığının artırılması istiqamətində hədəfləri qeyd edib.

İclasda Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq sosial təminat sisteminin gücləndirilməsi, sosial ödənişlərin artırılması, aktiv məşğulluq proqramlarının genişləndirilməsi istiqamətində atılan mühüm addımlar barədə məlumat verilib.

Bildirilib ki, əmək müqavilələrinin sayı ilin əvvəlinə nisbətən 1 faiz və ya 18,5 min müqavilə artaraq 1 milyon 765 minə çatıb, əməkhaqqı fondunda 10 faiz artım qeydə alınıb.

171,6 min şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub, o cümlədən 6,8 min nəfər özünüməşğulluq proqramına, 2,8 min nəfər ödənişli ictimai işlər proqramına cəlb olunub.

Dövlət Sosial Müdafiə Fondunun gəlirləri proqnozla müqayisədə 197 mln. manat çox olmaqla 3 mlrd. 271 mln. manat, xərcləri 418 mln. manat çox olmaqla 3 mlrd. 9 mln. manat təşkil edib.

Pensiya, müavinət, təqaüd və ünvanlı dövlət sosial yardımları üzrə əhaliyə ötən ilin müvafiq dövrünə nisbətən 695 mln. manat və ya 21,4 faiz çox olmaqla 3,9 mlrd manat ödənilib.

Pensiyaların orta aylıq məbləğinin 18 faiz artaraq 433 manata, o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləğinin 17 faiz artaraq 466 manata çatdığı bildirilib.

İclasda sosial müdafiə və aktiv məşğulluq, ödənişli ictimai işlər proqramlarının icrası, əmək qanunvericiliyinə və digər sahələrdə görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub.



# Şahin Bağırov onları rəis təyin etdi

***Dövlət Gömrük Komitəsinin 3 idarəsinə yeni təyinatlar olub.***

"Unikal"ın əldə etdiyi məlumata görə, bunlarla bağlı DGK sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov əmr imzalayıb.

Əmrə əsasən, Qədirov Pərviz Paşa oğlu Gəncə Gömrük İdarəsinə, Rüstəmov Elçin Ədalət oğlu Balakən Gömrük İdarəsinə, Alverdiyev Tariyel Mehman oğlu isə Sumqayıt Gömrük İdarəsinə rəis təyin olunublar.

Dövlət Gömrük Komitəsində daha iki yeni təyinat olub. Əmrə əsasən, Rüstəmov Rauf İlyas oğlu Bakı Baş Gömrük İdarəsinin Əməliyyat və təhqiqat idarəsinin, Əliyev Kamran Hafiz oğlu isə "İpək-yolu" gömrük postunun rəisi təyin ediliblər.

# "Azərikimya" İB-yə yeni baş direktor təyin olunub

***SOCAR "Azərikimya" İstehsalat Birliyinə yeni baş direktor təyin olunub.***

"Unikal" xəbər verir ki, bu vəzifəyə Elnur Elxan oğlu Məmmədli təyinat alıb.

E.Məmmədli 17 ildən artıqdır ki, SOCAR-ın müəssisələrində, son 7 ildə isə SOCAR Türkiyə şirkətində müxtəlif rəhbər vəzifələrdə çalışıb.

# Qubad İbadoğlunun şikayətinə baxılacaq

***Bakı Apellyasiya Məhkəməsində Qubad İbadoğlu barəsində seçilmiş həbs qərarından verilən apellyasiya şikayətinə baxılacaq.***

"Unikal" xəbər verir ki, bu barədə onun qızı Jalə Bayramova məlumat yayıb.

O qeyd edib ki, iclasın saat 12:30-da keçirilməsi nəzərdə tutulub.

# Nəqliyyat vasitələrinin utilizasiyaya verilməsi qaydası təsdiqləndi



***Azərbaycanda nəqliyyat vasitələrinin utilizasiyaya verilməsi qaydası təsdiqlənib.***

"Unikal"ın məlumatına görə, bununla bağlı Prezident İlham Əliyev "İstehsalat və məişət tullantıları haqqında" Qanuna dəyişiklik edilməsi barədə Qanunu imzalayıb.

Qanuna əsasən nəqliyyat vasitələri utilizasiyaya aşağıdakılar tərəfindən verilir:

- nəqliyyat vasitələrinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs;

"Yol hərəkəti haqqında" Qanunun 27-ci maddəsinin II və III hissələrinə uyğun olaraq onların dövlət qeydiyyatını həyata keçirən aidiyyəti orqanlar tərəfindən:

- Mülki Prosessual Məcəllə ilə müəyyən edilmiş qaydada sahibsiz hesab edilən;

- istismara yararsız vəziyyətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mühafizə olunan duracağında saxlanılan, əgər nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs yazılı şəkildə imtina edibsə.

Nəqliyyat vasitələri utilizasiyaya verilməzdən əvvəl "Yol hərəkəti haqqında" Qanunun 27-ci maddəsinin IX-I və IX-II hissələri ilə müəyyən edilən qaydada dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmalıdır.



# Tural Abbaslının da partiyası qeydiyyata alınmadı

***Ədliyyə Nazirliyi AĞ Partiyanın təqdim etdiyi üzvlük siyahılarında çatışmazlıq aşkarlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə partiyanın sədri Tural Abbaslı məlumat yayıb.

Bildirilib ki, partiya Ədliyyə Nazirliyinə 10001 nəfər üzvün məlumatlarını təqdim edib. Onlardan 3414 nəfər barədə məlumatlar (adı, soyadı, ata adı, doğulduğu tarix) düzgün göstərilməyib. 1424 nəfərin partiya üzvü olmadığı, 430 nəfərin məlumatlarının təkrarlandığı qeyd olunub.

"Texniki səbəblərdən reysterdə adları çıxmayan 3414 nəfər və partiyaçı olmadığı qeyd edilən 1424 nəfər işçi qrupumuz tərəfindən ən qısa zamanda araşdırılıb Ədliyyə Nazirliyinə təqdim ediləcək və əminəm ki, onların da böyük əksəriyyəti AĞ partiyaçı kimi qeydə alınacaqlar", - partiya sədri vurğulayıb.

Xatırladaq ki, Azərbaycanda siyasi partiyaların təkrar qeydiyyata alınması prosesi həyata keçirilir. Rəsmi məlumata görə, 27 siyasi partiya üzvlərinin siyahısını nazirliyə təqdim edib. Bildirilib ki, "Siyasi partiyalar haqqında" Qanuna əsasən partiyaların üzvlərinin reyestrinin qanunvericiliyin tələblərinə uyğunluğunun yoxlanılması zamanı onların bəzilərində qüsurlar, o cümlədən - üzvləri olmayan, vəfat etmiş şəxslərin reyestrə daxil edilməsi, bəzi şəxslərin adlarının təkrarlanması halları aşkarlanıb.

Nöqsanlarla bağlı partiyalara məlumat göndərilib, reyestrdə aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması üçün 30 gün vaxt verilib. Qeydiyyata alınmayanlar sırasında REAL, Müsavat və AXCP partiyaları da var. Nazirlik hər üç siyasi partiyaya sənədləri qaydasına salmaq üçün vaxt verib.

# Bu tələbləri pozanlar 600 manat cərimələnəcək

***Nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı tələbləri pozanlar cərimələnəcək.***



"Unikal"nın məlumatına görə, bununla bağlı Prezident İlham Əliyev İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi barədə Qanunu imzalayıb.

Məcəlləyə edilmiş dəyişikliklə utilizator tərəfindən nəqliyyat vasitələrinin utilizasiyası zamanı "Tullantılar haqqında" qanunun tələblərinin pozulmasına və yaxud yerinə yetirilməməsinə görə vəzifəli şəxslər 300 manat, hüquqi şəxslər isə 600 manat cərimə ödəyəcək.

Bundan başqa, digər yeni maddə ilə utilizator tərəfindən utilizatorların reyestetrində onun haqqında olan məlumatlarda baş vermiş dəyişikliklər barədə qanunda nəzərdə tutulan qaydada və müddətdə nəqliyyat vasitələrinin utilizasiyası üzrə operatora məlumatın verilməməsinə görə yenə də vəzifəli şəxslərin 300 manat, hüquqi şəxslərin isə 600 manat cərimə ediləcək.

# "Bankların bağlanmağındansa, onların sağlamlaşdırılmasına çalışmaq lazımdır"

## Vüqar Bayramov: "Kommersiya bankları müflis olan zaman orada sığortalanmayan əmanətləri olan vətəndaşlarımız ziyan çəkir"

***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, uçot dərəcəsinin sabit qalmasının iqtisadiyyata təsirindən, ilin sonuna qədər inflyasiyanın nə qədər ola biləcəyindən, hansı bankların bağlanma riskinin olmasından və taksi qiymətlərinin bahalaşmasından danışıb.***

***-Vüqar müəllim, Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin uçot dərəcəsi ilə bağlı sonuncu qərarı Azərbaycan iqtisadiyyatı üçün nə vəd edir?***

-Mərkəzi Bankın uçot dərəcəsini dəyişməz saxlaması yay mövsümündə istehlak bazarında inflyasiya təzyiqlərinin nisbətən səngiməsi ilə əlaqədardır. Eyni zamanda, 2022-ci illə müqayisədə qlobal və regional bazarda da inflyasiya meyllərinin azalmasını müşahidə edirik. Azərbaycan Mərkəzi Bankının açıqlamasında da qeyd olunub ki, hələlik inflyasiya ilə bağlı hədəflərə çatmaq mümkün olmayıb. Mərkəzi Bank 2023-cü ilin sonu və 2024-cü ilin əvvəli üçün birrəqəmli inflyasiya hədəflərinin reallaşacağını proqnozlaşdırır. Uçot dərəcəsinin manatın məzənnəsinə və eləcə də kredit faizlərinə təsirinə gəldikdə isə manatın məzənnəsi makroiqtisadi stabillik baxımından Mərkəzi Bank üçün əsas hədəflərdəndir. AMB bu istiqamətdə fəaliyyətini davam etdirir və yalnız uçot dərəcəsi ilə deyil, eyni zamanda sterilizasiya alətləri ilə milli valyutanın məzənnəsini qoruyub saxlamağa çalışır. Etiraf etmək lazımdır ki, Mərkəzi Bankın uçot dərəcəsinin kredit faizlərinə xüsusi təsiri yoxdur. Ona görə də uçot dərəcəsinin stabil qalmasının kredit faizlərinə təsir edəcəyini proqnozlaşdırmırıq.



***-Mərkəzi Bank 2024-cü ildə ölkə üzrə inflyasiyanın azalacağını və 5,5-6,5%-ə enəcəyini proqnozlaşdırıb. Siz necə düşünürsüz, bu ilin sonuna qədər və növbəti ildə inflyasiya azalacaq ya artacaq?***

-İnflyasiyanın hələlik 5-6 faizlik intervala qədər enməsi ehtimalları yüksək deyil. Dövlət Statistika Komitəsinin məlumatı da göstərir ki, istehlak bazarında qiymət artımları var. Doğrudur, dünyada, regionda, eləcə də Azərbaycan bazarında ümumi inflyasiya meylləri müqayisəli şəkildə səngiyib. Amma inflyasiya səviyyəsi 2022-ci il istisna olmaqla digər illərlə müqayisədə daha yüksəkdir. Ona görə də Mərkəzi Bank birrəqəmli inflyasiyaya ilin sonu və ya gələn ilin əvvəlləri nail olmağı hədəfləyir. Birrəqəmli inflyasiyaya nail olmaq heç də asan deyil. Bu, yalnız tələbin tənzimlənməsi deyil, həm də idxal inflyasiya səviyyəsindən asılı olacaq. İlkin qiymətləndirmələr göstərir ki, hələlik 5-6 faizlik inflyasiya hədəfinə nail olmaq asan deyil. Belə ki, idxal inflyasiyası aktivdir. Kənd təsərrüfatı məhsullarının qiymətlərində müəyyən qədər optimallaşma var. Çünki tələb artıb. Mövsümi faktor olduğuna görə bu ondan xəbər verir ki, illik aspektdən yanaşsaq, 2023-cü ildə də inflyasiya səviyyəsinin az olmayacağı proqnozlaşdırılır. Nəzərə alsaq ki, 12 faizlik inflyasiya var. Bu da ikirəqəmlidir. Onun birrəqəmli olması üçün həm də idxal inflyasiyasının tənzimlənməsinə ehtiyac var.

***-AMB sədrinin keçirdiyi mətbuat konfransında danışdığı məsələlərdən biri də banklarla bağlı idi. Hazırda Azərbaycanda bağlanma riski olan banklar varmı?***

-Bizim yanaşmamız ondan ibarətdir ki, kommersiya banklarının bağlanmağındansa, onların sağlamlaşdırılması və bir sıra hallarda birləşdirilməsi həyata keçirilsin. Çünki banklar müflis olan zaman orada sığortalanmayan əmanətləri olan vətəndaşlarımız ziyan çəkirlər. Bank sektoruna inam baxımından da onların müflisləşməsi deyil, birləşdirilməsi vacibdir. Banklarda təmərküzləşmə meyllərinin minimumlaşdırılması, xüsusilə, aktivlərin bölgüsünün daha proporsional aparılması vacibdir. Bu gün bank sektorunda aktivlərin 60 faizdən çoxu 3 banka məxsusdur. Bu da təmərküzləşmə səviyyəsinin yüksək olduğunu göstərir. Ona görə də sistem əhəmiyyətli banklarla yanaşı orta mövqeli və ya nisbətən kiçik hesab olunan bankların da sektorda payının artırılması istiqamətində işlər görülməlidir. Son bir ildə Mərkəzi Bank tərəfindən bu istiqamətdə addımlar atılır. O cümlədən, məcburi öhdəliklərlə bağlı yanaşma və digər alətlərdən istifadə olunması aktivlərin həcminə uyğun olaraq qaydaların və ya dərəcələrin müəyyənləşdirilməsinə imkan yaradır. Burada məqsəd təmərküzləşmə meyllərini minimumlaşdırmaqdan ibarətdir. Bu istiqamətdə fəaliyyət daha intensiv olmalıdır ki, bankların yenidən müflis olmasını müşahidə etməyək.

***-Son günlər müzakirə olunan məsələlərdən biri də taksi qiymətləri ilə bağlıdır. Belə ki, "Bolt", "Uber", "Yango" taksi şirkətləri qısa məsafələr üçün gedişləri artırıblar. Bu artım taksidən istifadəyə necə təsir edəcək?***

-Taksi fəaliyyəti ilə bağlı yeni qaydalar oktyabrın 1-də qüvvəyə minəcək. Hiss olunur ki, taksi şirkətləri yeni qaydalara uyğunlaşmağa çalışırlar. Yeni qaydalar tək lisenziyaların, icazələrin alınması ilə bağlı deyil, eyni zamanda taksi xidmətində keyfiyyətin artırılması, o cümlədən bir sıra qaydalara əməl edilməsi ilə bağlıdır. Hələlik taksi sektorunda əvvəlki qaydalar tətbiq olunur. Yeni qaydaların tətbiqi fonunda taksi sektorunda tələbin azalması müşahidə olunacaq. Bu zaman vacib məqamlardan biri ictimai nəqliyyatın artacaq tələbə hazır olmasıdır. Taksi fəaliyyətinin tələbi azalacaqsa, o zaman ictimai nəqliyyata tələb artacaq. Ona görə də ictimai nəqliyyat sektorunun inkişaf etdirilməsi, fasiləsiz və keyfiyyətli xidmətin göstərilməsi, paytaxtda avtobusların sayının artırılması çox vacibdir. İctimai nəqliyyata artan tələbi ödəmək üçün infrastruktur və avtobus sayı baxımından dəyişikliyə ehtiyac var. Bu istiqamətdə addımlar atılmalıdır. Etiraf etmək lazımdır ki, ictimai nəqliyyatın mövcud infrastrukturu artan tələbi qarşılamaq potensialına malik deyil. Gözlənilir ki, qiymətlərin dəyişməsi ilə bağlı taksi fəaliyyətinə tələb azalacaq. Bu baxımdan ictimai nəqliyyata artan tələbin ödənilməsi üçün daha sistemli fəaliyyətin həyata keçirilməsi vacibdir. İctimai nəqliyyat inkişaf etdirilmədir ki, sərnişindaşımada çətinliklər yaranmasın.

***Anar Kəlbiyev***

# Samir Şərifovun ətrafında "halqa daralır"

## Onun himayə etdiyi BNA rəhbəri ciddi təhlükə qarşısındadır



***Yola salmaq üzrə olduğumuz həftə "Bakı Nəqliyyat Agentliyi" (BNA) publik hüquqi şəxsin vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlandı. Bu barədə Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumatda qeyd olunub ki, istintaqla Agentliyin Yol hərəkətinin təşkili şöbəsinin müdir müavini Vüqar Hüseynovun həmin vəzifədə işləyərkən qeyd olunan struktur qurumun məsləhətçisi Hikmət Vəlizadə ilə əlbir olaraq 2023-cü ilin iyun-iyul ayları ərzində Bakı şəhəri ərazisində parklanma sahələrinin təşkil olunması üçün müvafiq prosedurların həyata keçirilməsi müqabilində müxtəlif şəxslərdən ümumilikdə 16 min 500 manat məbləğində pul vəsaitini rüşvət qismində almasına əsaslı şübhələr müəyyənləşdirilib.***

İlkin sübutlar əsasında Vüqar Hüseynov və Hikmət Vəlizadəyə Cinayət Məcəlləsinin 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.1, 311.3.2 və 311.3.3 (qabaqcadan əlbir olan qrup şəxs tərəfindən təkrar və külli miqdarda rüşvət alma) maddələri ilə ittiham elan edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hüquqazidd əməllərin törədilməsində iştirak etmiş digər şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

Xatırlatmaq artıqdır ki, BNA son illərdə mətbuatın və cəmiyyətin hədəfində olan başlıca qurumlardan biridir. Agentlikdə rüşvət və korrupsiya hallarının tüğyan etdiyi barədə iddiaların ardı-arası kəsilmir. Elə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başladılan cinayət işi də həmin ittihamların əsassız olmadığını ortaya qoydu.

Bundan başqa, Vüsal Kərimlinin rəhbəri olduğu qurumun qarşısına qoyulan məqsəd və vəzifələrin həyata keçirilməsində səriştəsizlik nümayiş etdirməsi də illərdir BNA-nı tənqid hədəfinə çevirir.

İndi isə belə görünür, Bakı Nəqliyyat Agentliyində hökm sürən "bezpredel"ə son qoymaq zamanı çatıb və istisna deyil ki, qurumun vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə başlanmış cinayət işi nəhayət ki, V.Kərimli ilə bağlı çoxdan gözlənilən qərarın verilməsinə gətirib çıxaracaq. Onun vəzifəsindən azad edilməsi, hətta BNA ilə bağlı rüşvət və korrupsiya araşdırmalarının genişləndirilməsi nəticəsində hüquqi məsuliyyətə cəlb olunması istisna olunmur.

Bu eyni zamanda maliyyə naziri Samir Şərifov ətrafında "halqanın daralması" anlamına da gələcək. Məsələ burasındadır ki, V.Kərimlini məhz Şərifovun himayə etdiyi vurğulanır. Hesab edilir ki, haqqındakı kifayət qədər ağır ittihamlara baxmayaraq BNA rəhbərinin hələ də öz postunu qoruyub-saxlaması məhz maliyyə nazirinin onu ciddi-cəhdlə qorumasının nəticəsidir. İddialara görə, BNA-nın keçirdiyi tenderlərdə qalib elan edilən şirkətlər əslində dolayısı ilə S.Şərifovun nəzarətindədir. Maliyyə nazirinin Kərimlini qorumasında başlıca faktor kimi bu göstərilir. "Nazir Agentliyin rəhbərliyində dəyişiklik baş verərsə, indiyədək keçirilən dövlət satınalma müsabiqələrindəki qanunsuzluqların ortaya çıxa biləcəyindən və nəticədə özünün də zərər görə biləcəyindən narahatdır" deyə vurğulanır.

Lakin BNA-dakı özbaşınalıqların artıq hüquqi müstəvidə araşdırılmağa başlaması ciddi siqnal kimi qəbul olunmalıdır. Belə görünür, biz çox keçmədən Agentlikdə artıq çoxdan qaçılmaza çevrilən direktor dəyişikliyinin şahidi olacağıq. Bu isə bir müddətdir vəzifədən azad ediləcəyinə dair məlumatların dolaşdığı Samir Şərifov ətrafında halqanın daralması anlamına gələcək.

Hazırda hökumətin ən "stajlı" nazirlərindən sayılan Şərifov 16 ildir bu postu tutur. Ondan əvvəl - 2001-2006-cı illərdə isə Dövlət Neft Fondunun İcraçı Direktoru postunu tutan maliyyə naziri hökumətdəki köhnə məmur korpusunun vəzifəsini qoruyub-saxlaya bilmiş az sayda nümayəndələrindən biridir.

Qeyd edək ki, bir müddət öncə Maliyyə Nazirliyinin büdcə təşkilatları və dövlət büdcəsindən dotasiya, subsidiya, subvensiya, eləcə də digər maliyyə yardımları alan təşkilatlardan həmin vəsaitlər barədə müəyyən olunmuş qaydada aylıq hesabat hüququndan məhrum edilməsi S.Şərifov üçün ciddi səlahiyyət itkisi olaraq qarşılanmışdı. Bildirilirdi ki, bu, onun tədricən "portfel naziri"nə çevrilməyə başladığını göstərir. Oxşar tendensiyanın əksər nazirlərin vəzifəsindən azad edilmə ərəfəsində yaşandığını nəzərə alsaq, Şərifovun qarşıdakı müddətdə postundan uzaqlaşdırılması sürpriz qarşılanmayacaq. Onun himayə etdiyi BNA rəhbəri ətrafında yaşananlar isə sözügedən prosesi yəqin ki, bir az da sürətləndirəcək...

***Toğrul Əliyev***



# "Türkiyənin bir çox silahları ilə maraqlanırıq" - Zakir Həsənov

***"Türkiyə istehsalı olan bir çox silahlarla maraqlanırıq, lakin gizli olduğu üçün həmin silahların adlarını açıqlamayacağam".***

Bunu Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov deyib. Nazir bildirib ki, Türkiyənin hərbi sənayesi sürətlə inkişaf edir: "Bu inkişaf bizi sevindirir. Azərbaycan Türkiyənin hərbi sənayesi ilə yaxından maraqlanır. Biz çoxlu sayda ikitərəfli müqavilələr imzalamışıq. Eyni zamanda bir çox layihələri birlikdə həyata keçiririk".

Z.Həsənov qeyd edib ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı ilə orduda islahatlar aparılır: "Azərbaycan Ordusunun strukturu Türkiyə Silahlı Qüvvələrinin strukturuna bənzər formada təkmilləşdirilir və yenidən formalaşdırılır. Odur ki, bizim həm strukturumuz, həm də silahlarımız eyni olmalıdır. Bu istiqamətdə böyük işlər görülür. İki ölkə liderlərinin bununla bağlı tapşırıqlarını qısa müddətdə yerinə yetirəcəyik".

Qeyd edək ki, Z. Həsənov İstanbul şəhərində keçirilən "IDEF - 23" 16-cı Beynəlxalq Müdafiə Sənayesi Sərgisində iştirak etmək üçün Türkiyədə səfərdədir.

# Audiovizual Şura bu barədə televiziya kanallarına xəbərdarlıq etdi



***Audiovizual Şuranın onlayn formatda növbəti iclası keçirilib.***

"Unikal" xəbər verir ki, iclasda Şuranın monitorinq qrupunun televiziya redaksiyalarının efirində qeydə aldığı qanun pozuntuları müzakirə olunub.

Belə ki, son günlərdə "ARB", "ATV", "Space TV", "Xəzər TV" televiziya redaksiyalarının efirində xarici dildə mətnin səsləndirilməsi ilə müşayiət olunan sərinləşdirici qəhvə içkisinin reklam çarxının nümayişi qeydə alınıb. Bildiririk ki, həmin reklam çarxında olan bəzi ifadələrin Azərbaycan dilinə tərcüməsinin yazılı şəkildə nümayiş olunmasına baxmayaraq, "Media haqqında" Azərbaycan Respublikası Qanunun 14.2-ci maddəsinin, habelə "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 4.7-ci maddəsinin tələblərinə əsasən "Dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına riayət olunmalı, yerüstü yayımçı proqramlarında dövlət dilindən istifadəni təmin etməli və reklamın əsas danışıq mətni də dövlət dilində səsləndirilməlidir.

Qeyd olunanları nəzərə alaraq Azərbaycan Respublikası Audiovizual Şurası bütün televiziya redaksiyalarından həmin reklam çarxının dərhal yayımdan çıxarılmasını və yalnız səsli mətnin Azərbaycan dilinə tərcümə olunması və Azərbaycan dilinə adaptasiyası şərtilə həmin reklam çarxının nümayiş olunmasını tələb edir.

Qanunvericilik tələblərinə əməl olunmadan proqramların (o cümlədən reklamların) yayımlanması aşkarlanarsa, həmin yayımçıya qarşı Şura tərəfindən müvafiq sanksiyalar tətbiq olunacaq.

# Səbinə Əliyeva: "Mediasiya ilə bağlı Ombudsmana şikayətlər qeydə alınmayıb"

***Cari ilin ilk 6 ayı ərzində mediasiya ilə bağlı Ombudsmana şikayətlər qeydə alınmayıb.***

Bunu Mediasiya islahatları sahəsində qanunvericiliyin təkminləşdirilməsi ilə əlaqədar Nazirlər Kabinetinin 29 dekabr 2022-ci il tarixli, 30590 nömrəli dərkənarı ilə aidiyyəti qurumlara ünvanlanan məktubun icrası üzrə təkliflərin müzakirəsinə həsr edilmiş ilkin müzakirə zamanı Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva deyib.

"Bununla belə, əvvəlki illərdə qeyd olunan sahə ilə əlaqədar Ombudsmana ünvanlanmış şikayətlər əsas etibarı ilə mediatorlar tərəfindən etik davranış normalarının pozulması, mediasiya sessiyası zamanı tərəflərin hüquq bərabərliyinin təmin olunmaması, mediasiya sessiyası barədə bildirişin təqdim edilməməsi və sənədləşmə prosesindəki nöqsanlarla bağlı olub", - Ombudsman əlavə edib.



Səbinə Əliyeva şikayətlərlə əlaqədar Ombudsman tərəfindən Mediasiya Şurasına ünvanlanmış müraciətlər əsasında operativ araşdırmalar aparıldığı, pozuntu müəyyən edildiyi hallarda onların aradan qaldırılmasının təmin edildiyini qeyd edib.

"Ombudsman Aparatı və Mediasiya Şurası arasında sıx əməkdaşlıq mövcuddur".



# Bu tarixdən məktəbəhazırlıq qruplarına qəbul başlayır

***Avqustun 9-da saat 11:00-dan 2023-2024-cü tədris ili üzrə məktəbəhazırlıq qruplarına qəbul üçün qeydiyyata start verilir. Qeydiyyat mektebeqebul.edu.az elektron sistemi üzərindən həyata keçiriləcək.***

Elm və Təhsil Nazirliyindən "Unikal"a verilən xəbərə görə, Azərbaycan bölməsi üzrə məktəb və müəllim seçimi 11 avqust saat 11:00-da, tədris digər dillərdə aparılan bölmələr üzrə məktəb və müəllim seçimi isə 15 avqust saat 11:00-da aktiv ediləcək.

Qeyd edək ki, 2023-2024-cü tədris ilindən özəl ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarına qəbul da mektebeqebul.edu.az elektron sistemi vasitəsilə aparılacaq.

# "Jurnalistika" ixtisasına qəbul olmaq istəyənlərin qeydiyyatı başlayıb

***III ixtisas qrupu üzrə imtahan verərək müsabiqə şərtini ödəyən (ümumi balı ən azı 200, imtahanın ikinci mərhələsi üzrə balı isə ən azı 100 bal olmalıdır) və "Jurnalistika" ixtisasına qəbul olmaq istəyən abituriyentlər 27-31 iyul (saat 23:59-dək) 2023-cü il tarixlərində DİM-in internet səhifəsinə daxil olaraq sorğu anketi doldurmaqla qeydiyyatdan keçməlidirlər.***

DİM-dən verilən xəbərə görə, Tələbə qəbulu elanının "Ərizə qəbulu" bölməsinin 3-cü bəndində göstərilən kateqoriyadan olan və digər XQTİ?lər üzrə qeydiyyatdan keçməyən abituriyentlərin cari ildə "Jurnalistika" ixtisası üzrə qabiliyyət imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olur. Eyni bölmənin 4-cü bəndində göstərilən kateqoriyadan olan abituriyentlərin isə hamısının "Jurnalistika" ixtisası üzrə qabiliyyət imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

Digər abituriyentlər qeydiyyatdan keçmək üçün tələb olunan məbləği şəxsi kabinetindəki hesabına əlavə etməlidirlər.

Abituriyentlər imtahanda təqdim olunan mövzu üzrə yazı işi (inşa) yerinə yetirirlər. Qabiliyyət imtahanından uğurla keçən abituriyentlər ixtisas seçimi zamanı digər ixtisaslarla yanaşı, "Jurnalistika" ixtisasını da seçə bilərlər.

"Jurnalistika" ixtisasına qəbul olmaq istəyən abituriyentlərin qabiliyyət imtahanı avqustun 6-da keçiriləcək. Bu mərhələdən uğurla keçən abituriyentlər ixtisas seçimi zamanı digər ixtisaslarla yanaşı "Jurnalistika" ixtisasını da seçə bilərlər.

Qabiliyyət imtahanı mərhələsində abituriyentlərə təklif olunacaq inşa mövzuları (Azərbaycan və rus dilində), abituriyentlərin yazacaqları inşaya (esseyə) verilən tələblərlə "Abituriyent" jurnalının Jurnalistika istiqaməti üzrə xüsusi buraxılışında tanış ola bilərsiniz.

Xüsusi buraxılışı "Abituriyent" satış köşklərindən, həmçinin kitab mağazalarından almaq və ya www.abiturient.az saytından sifariş etmək olar.

# "Azəristiliktəchizat"da Yaşar Həsənov "küləkləri əsir"

## Borc bataqlığında olan qurum vətəndaşları borclu çıxarır? - Satınalmalarla bağlı da müəmmalar dolaşır

***Son günlər mediada və sosial şəbəkələrdə "Azəristiliktəchizat"la bağlı şikayətlər intensivləşib. Belə ki, vətəndaşlar adıçəkilən ASC-nin xidmətindən istifadə etmədikləri halda adlarına borc bildirişləri gəlməsindən şikayətlənirlər.***

Məsələn, belə iddiaların birində qeyd edilir ki, "Azəristiliktəchizat"dan 154 manat 94 qəpik borc bildirişi gəlib. Mənzil sahibi qurumla əlaqə saxlayaraq bu qiymətin nəyə əsasən hesablandığını soruşub, çünki mənzilində yerli-dibli "otopleniya" yoxdur... Cavab olaraq isə deyilib ki, bunun sübutu üçün ASAN xidmətdən son 10 ilin elektrik enerjisi sərfiyyatı ilə bağlı çıxarış almaq lazımdır. Yalnız bu çıxarış əsasında vətəndaşın mərkəzləşdirilmiş istilik sistemindən istifadə etmədiyinə aydınlıq gətirilə bilər.



Qeyd edək ki, "Azəristiliktəchizat" ASC-nin mətbuat katibi Elvin Basqallı bəzi şəxslərə mənzillərdə istilik sistemi olmadığı halda borc bildirişi gəlməsinə aydınlıq gətirib. O, "pravda.az"-ın sorğusuna cavab olaraq bildirib ki, bəzən kimsə mənzil alır, həmin mənzilin köhnə sahibinin əvvəlki illərdə istiliklə bağlı borcu olur. Yeni mənzil sahibi də bundan narazılıq edir. Mənzil alqı-satqısı zamanı bu məsələdə diqqətli olmaq, digər kommunal xidmətlərlə yanaşı istiliklə bağlı borcun olub-olmadığını əvvəlcədən yoxlatmaq lazımdır. Yaxud mənzil sahibi hansısa ildə mərkəzi istilik sistemindən imtina edirsə, bununla bağlı "Azəristiliktəchizat" ASC-yə müraciət etməlidir. Əməkdaşlarımız tərəfindən akt tərtib olunmalıdır ki, doğrudan da həmin mənzil artıq istilik almır. Müraciət edilmədiyi təqdirdə bir müddət sonra mənzil sahibinin adına borc yığılır. Bununla bağlı müraciət daxil olduqda da "Azəristiliktəchizat" Komissiya təşkil edir, müvafiq araşdırma aparır ki, həqiqətən də mənzil bu tarixdən istilik almır. Məsələ bir çox hallarda vətəndaşın xeyrinə həll olunur. Praktikada belə müraciətlər olub, vətəndaşın problemi müsbət nəticələnib".

Qurum rəsmisi vurğulayıb ki, "Azəristiliktəchizat" ASC istiliyi binalara qədər verir: "Binaların zirzəmisinə qədər istilik vermək məsuliyyət zonamıza daxildir. Lakin həmin binadan istiliyin mənzillərə paylanması binadaxili və mənzildaxili məsələ hesab olunur. Bəzən binaya qədər istilik verilir, bir çox qonşuların mənzilləri istiliyi normal alır, digər mənzil sahibi isə istilik sistemi cihazlarını təmizləmir. Yaxud həmin mənzilə istilik gəlməməsi ilə bağlı müraciət edib, problemi aradan qaldırmır, düşünür ki, ona istilik verilməyib, amma borc yazılıb. Halbuki "Azəristiliktəchizat" həmin binanı istiliklə təmin edib... Vətəndaş istilik sistemini təmizləmirsə, istilik ala bilmirsə, bu, vətəndaşdan qaynaqlanan məsələdir. Belə hallarda anlaşılmazlıqlar yaranır. "Azəristiliktəchizat" ASC-yə konkret müraciət olunmalıdır. Hər bir fərdi müraciətin öz fərdi izahı, cavabı var".

Lakin bir çox ekspertlər bu cür yanaşmanı qəbul etmirlər. Onların fikrincə, istənilən qurumun əsas vəzifələrindən biri vətəndaşa keyfiyyətli xidmət göstərməkdir. "Kiməsə süni problem yaradıb sonra da "müraciət eləyin, yoluna qoyaq" heç bir məntiqə sığmır. Ola bilsin, qanunlarda, təlimatlarda boşluq var, belədə həmin qurumun borcu bu boşluğu aradan qaldırmaqdır. Vətəndaş niyə durduğu yerdə vaxt, enerji itirməlidir, əsəbləşməlidir?" deyən mütəxəssislər əlavə edirlər ki, əgər bir sahədə illərdən bəridir eyni problem təkrarlanırsa, bu həmin sahəyə məsul qurumun öz işini düzgün qura bilməməsinin ifadəsidir.

Xatırladaq ki, "Azəristiliktəchizat"a uzun illər Yaşar Həsənov rəhbərlik edib. Onun dövründə adıçəkilən ASC dövlətdən külli miqdarda dotasiya almasına baxmayaraq ilbəil zərər edib, onun iri məbləğdə borcları yaranıb, hətta "Azəriqaz"a yığılan borclar səbəbilə son illərdə evlərin istiliklə təmin edilməsi yubanıb, bu isə kütləvi narazılıqlara gətirib çıxarıb. Bundan başqa, qurumda korrupsiyanın dərin kök salmasına dair iddiaların və ittihamların ardı-arası kəsilməyib.

Nəticədə ötən ilin fevralında Y.Həsənov vəzifəsindən azad olunub.

Həmin vaxtdan indiyədək "Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti olaraq İlham Mirzəliyev icra edir.

Lakin bu səhmdar cəmiyyətlə bağlı şikayətlərin səngiməməsi orada köhnə rəhbərlikdən qalan yanlış idarəetmə prinsiplərinin hələ də işlədiyi təəssüratı yaradır.

Son olaraq "Azəristiliktəchizat"ın vergi borcu olan şirkəti böyük məbləğli tenderin qalibi elan etməsi də eyni qəbildəndir. Belə ki, mətbuat sözügedən ASC-nin "Xüsusi texnika və nəqliyyat vasitələri üçün ehtiyyat hissələrinin satın alınması" ilə bağlı elan etdiyi tenderin başa çatdığını yazıb.

Tenderin qalibi kimi isə nizamnamə kapitalı 20 AZN, qanuni təmsilçisi Temur Əkrəm oğlu Müslümov olan "Avto Texnika Detaling" seçilib. Tərəflər arasında 788.948 AZN-lik müqaviləyə imza atılıb.

Lakin mətbuatın məlumatına görə, qalib şirkətin dövlətə vergi borcu mövcuddur. Belə ki, sözügedən MMC-nin hazırkı vergi borcu 4509.21 AZN təşkil edir. Halbuki, "Dövlət satınalmaları haqqında" Qanun vergi borcu olan şirkətlərin, şəxssin tenderdə iştirakını qadağan edir.

Xatırlatmaq yerinə düşür ki, Yaşar Həsənovun zamanında da "Azəristiliktəchizat"ın tenderləri ilə bağlı bir çox müəmmalar dolaşırdı. Məsələn, qurum qazanxana və istilik şəbəkələrinin istismarı üçün layihə üzrə müəyyən edilmiş müxtəlif markalı nasos, mühərriklərin satınalınması üzrə 43 660 manat məbləğində satınalma müqaviləsini 18.11.2021-ci il tarixdə "Tikinti bərpa firması" MMC ilə bağlamışdı. Lakin həmin vaxt şirkətin udduğu məbləğdən az qala 3 dəfə çox - 124 297.28 manat vergi borcu olduğu aydınlaşmışdı...

***Sənan Mirzə***

# Bəzi iri məmurların yeni özünümüdafiə taktikası...

## Böyük ümidlərlə və gözləntilərlə yaradılan ictimai şuraları kimlər və niyə formal qurumlara çeviriblər?

***Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2014-cü il 16 yanvar tarixində "İctimai iştirakçılıq haqqında" qanunun tətbiqi barədə fərman verildi. 2014-cü ilin 30 may tarixində isə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə" təsdiq olundu və 2014-cü il iyunun 1-dən qüvvəyə mindi.***

Elə həmin il "İctimai iştirakçılıq haqqında" qanunun qüvvəyə minməsindən sonra isə müvafiq strukturlar yanında ictimai şuraların yaradılması məcburi xarakter daşımağa başladı. Hazırda mərkəzi icra hakimiyyəti orqanlarının bir çoxunda İctimai Şura fəaliyyət göstərir.

Bu qurumların qarşısında qoyulan başlıca vəzifə qəbul edilən qərarların və icra olunan fəaliyyətlərin qanunvericiliyə nə qədər uyğun olmasının yoxlanmasıdır.

Həmçinin unutmayaq ki, ölkə başçısı çıxışlarında mütəmadi şəkildə ictimai nəzarət mexanizmlərinin işə salınmasının vacibliyini vurğulayıb. "Hesab edirəm ki, ictimai nəzarət mexanizmləri işlənməlidir. Çünki sadəcə olaraq, insanlardan tələb etsək ki, gedin o və ya bu sahəyə nəzarət edin, bu, çətin məsələdir. Burada lazımi səviyyədə həm ictimai fəallıq, həm də mexanizmlər olmalıdır. İctimai nəzarət mexanizmləri mütləq tətbiq edilməlidir. Hökumət bu məsələ ilə bağlı öz təkliflərini təqdim etsin. Təbii ki, heç bir vaxt israfçılığa yol verilməməlidir, xüsusilə indiki şəraitdə çox ciddi nəzarət olmalıdır" - deyə Prezident bildirib.

Bu kontekstdə ictimai şuralardan haqlı olaraq gözlənti böyük idi, lakin son zamanlar onlarla bağlı cəmiyyətin müxtəlif təbəqələrindən yüksələn iradlar təəssüf doğurur.

Məsələn, ötən sayımızda da yazdığımız kimi, Etibar Əliyev Elm və Təhsil Nazirliyinin yanında İctimai Şurada fəaliyyətini qeyri-mümkün hesab edib və Şura üzvlüyündən istefa verib. Sitat: " İctimai Şura yalnız bir adamın (Emin Əmrullayevin) təsiri altındadır və onun müdafiəsi ilə məşğul olur. Şura üzvlərinin nazir tərəfindən təlimatlandırılması isə açıq şəkildə görünür... E. Əmrullayev elm və təhsillə bağlı prinsipial məsələlərin heç birində Şura ilə məsləhətləşmə aparmayıb".



Bu açıqlamanın ardından deputat Fazil Mustafa isə deyib ki, "İctimai şuralar "İctimai İştirakçılıq haqqında" qanunun tələblərinə görə formalaşıblar: "Amma zaman göstərdi ki, bunun mahiyyəti doğru anlaşılmadı. Əslində bu hansısa nazirliyin və ya icra hakimiyyəti orqanının tərkibində məsləhət və ya məşvərət şurası deyil, yaxud hansısa nazirə dəstək şurası nəzərdə tutulmayıb".

Lakin sözügedən qurumlar ətrafında mübahisələr yuxarıda söylənilənlərlə yekunlaşmır.

Məsələn, bu günlərdə hüquqşünas Mirəli Hüseynov isə deyib ki, ictimai şuralar yarananda cəmiyyətdə böyük bir səs küyə səbəb oldu. Sitat: "İnsanlar düşündü ki, ictimai şuralar onların problemini çatdıra biləcəklər. Amma onların fəaliyyətsizliyini görəndən sonra insanlarda bu inam itdi".

Yaxud, "Biosfer" İctimai Birliyinin sədri Qorxmaz İbrahimli isə sözügedən şuraların fəaliyyətinin formal olmasında birinci növbədə müvafiq dövlət qurumlarını səbəbkar hesab edib. Sitat: "Bundan bir neçə il əvvəl ölkə Prezidenti çıxışlarının birində ictimai nəzarətin vacibliyini dilə gətirdikdən sonra dövlət qurumları bu şuraları formalaşdırmağa qalxdılar. Başa düşdülər ki, dövlət başçısı bu məsələni şəxsi nəzarətinə götürdüyündən başqa çarələri qalmayacaq və yaratmağa başladılar. Şuraların yarandığı və fəaliyyət göstərdiyi son iki ili gözdən keçirsək, görərik ki, ciddi bir irəliləyiş və ya dəyişiklik yoxdur. Deyə bilərsiniz ki, ictimai şuraların yaranması ilə bu xoşagəlməz halların qarşısı alındı, məmurlar islah olundu. Ancaq elə deyil. Dediyimiz kimi, ictimai şuraların yaradılmasının qaçılmaz olduğunu anlayan bir çox nazirlik, komitə və İH başçıları loyal, onların istədiyini yerinə yetirəcək Şuralar formalaşdırmağa başladılar..."

Göründüyü kimi, böyük ümidlərlə, gözləntilərlə yaradılan ictimai şuraların fəaliyyəti ilə bağlı real mənzərə ürəkaçan deyil. Nazirlər, komitə rəhbərləri, şəhər və rayon icra hakimiyyətləri başçıları bu qurumları formal orqanlara çeviriblər, onlardan daha çox "qalxan" kimi faydalanırlar. Hər hansı dövlət qurumu cəmiyyətdə, mediada tənqid hədəfinə çevrildikdə əksər hallarda həmin qurumda yaradılan İctimai Şura üzvlərindən deyilənlərin, yazılanların əsassız olması barədə açıqlamalar verməK tələb olunur. Bir sözlə, nazirliklərdə, komitələrdə, rayon və şəhər icra hakimiyyətlərində ictimai nəzarət funksiyasını yerinə yetirməli olan orqan özünü ictimai rəyə nəzarət orqanı kimi aparmağa başlayır!

İstisna deyil ki, bəzi ictimai şuralar öz işlərinin öhdəsindən layiqincə gəlir, yaxud layiqincə gəlməyə çalışır, ancaq ən müxtəlif təbəqələrdən səsləndirilən iradlar onların qarşılarına qoyulan həqiqi vəzifələri yerinə yetirməkdə çətinlik çəkdiyini, ya da yerlidibli belə qayğılarının, dərdlərinin olmadığını göstərir.

Və deyəsən, tədricən absurd situasiya yaranır: bu gedişlə, dövlət qurumlarında ictimai nəzarəti təmin etməli olan İctimai Şuraların özünə də ictimai nəzarət lazım olacaq...

**Sənan Mirzə**



# Baş nazirin müavini beynəlxalq iqtisadi forumda iştirak edib

***İyulun 27-də Qırğız Respublikasının Çolpon-Ata şəhərində VII Beynəlxalq "İssık-Kul 2023" iqtisadi forumu keçirilib.***

Nazirlər Kabinetindən verilən xəbərə görə, Forumun işində Baş nazirin müavini Əli Əhmədovun başçılıq etdiyi nümayəndə heyəti iştirak edib.

Qırğızıstan Respublikası Nazirlər Kabinetinin sədri Akılbek Joparov Ə.Əhmədov və digər forum iştirakçılarını salamlayıb. Forumda çıxış edən Ə.Əhmədov vurğulayıb ki, Azərbaycan regional və qlobal miqyasda əməkdaşlığın, sülh və dialoqun təmin edilməsinə yönəlmiş strateji kurs həyata keçirir.

Qeyd olunub ki, Avropa və Asiyanın kəsişməsində yerləşən Azərbaycan regionda olan tərəfdaşları ilə birlikdə nəqliyyat kommunikasiyalarının inkişafına,regional və kontinental ticarətin genişlənməsinə istiqamətlənmiş təşəbbüslər və layihələrdə iştirak edir.

Azərbaycan Şimal-Cənub və Şərq-Qərb Beynəlxalq nəqliyyat dəhlizləri, Bakı-Tbilisi-Qars və digər layihələr üzrə zəncirin mühüm halqasıdır. Ə.Əhmədov deyib: "Biz Azərbaycan ərazisindən keçməklə müxtəlif marşrutlar üzrə yükdaşımalarında illik artım müşahidə edirik. 2022-ci ilin yekunlarına görə, artım 75 faiz təşkil edib. Biz ölkəmizin ərazisindən keçməklə yükdaşımalarında sürətli artım gözləyirik".

Forum iştirakçılarına Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının gücünün artırılması və Azərbaycanda doqquzuncu beynəlxalq aeroport və işğaldan azad olunmuş ərazilərdə üçüncü hava limanı olacaq Laçın Aeroportunun tikintisi barədə məlumat verilib. Bütün bu tədbirlər Azərbaycanın tranzit potensialının xeyli genişlənməsinə şərait yaradır ki, bu da daşımaların artması ilə bağlı problemlərin səmərəli həllinə kömək edəcək və beynəlxalq nəqliyyat dəhlizlərinin fasiləsiz işini təmin edəcək.

Forumda qeyd edilib ki, Azərbaycanın Böyük İpək Yolunun bərpası və Orta Dəhlizin inkişafı üzrə strategiyası yüksək səviyyədə Çinin "Bir kəmər, bir yol" layihəsinin reallaşdırılmasına dair konsepsiya ilə üst-üstə düşür. Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, Azərbaycan Çinin təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biri olub.

Baş nazirin müavini, həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rolundan bəhs edib. Bu kontekstdə Xəzər regionunu Avropaya, qlobal energetika təhlükəsizliyi sisteminə birləşdirən Cənub Qaz Dəhlizinin qiymətli töhfəsi qeyd edilib.

Təbii qazla yanaşı Azərbaycanın alternativ enerjinin inkişafı üçün böyük potensiala malik olduğunu vurğulayan Ə.Əhmədov deyib ki, dövlət başçısı 2030-cu ilə qədər bərpaolunan enerji mənbələrinin ölkənin energetika sistemində payının 30 faizə çatdırılmasına dair hökumət qarşısında vəzifə qoyub. Artıq bu istiqamətdə dünyanın qabaqcıl şirkətləri ilə birgə iri layihələr həyata keçirilir.

Baş nazirin müavini, həmçinin Qırğızıstanı sosial-iqtisadi sahədə əldə olunmuş uğurlar münasibətilə təbrik edib. Qeyd olunub ki, Qırğızıstanda mühüm dövlət proqramları səmərəli şəkildə həyata keçirilir, əhalinin rifah halı yaxşılaşır, ölkənin investisiya cəlbediciliyi artır.



# Azərbaycanda bu şəxslər 5000 manat cərimələnəcək

## Utilizator tərəfindən nəqliyyat vasitələrinin utilizasiya fəaliyyətində pozuntularla bağlı cərimələr müəyyənləşir

***”Unikal” xəbər verir ki, bu, Prezident İlham Əliyevin təsdiqlədiyi İnzibati Xətalar Məcəlləsinə dəyişikliklə əksini tapıb.***

Qanuna əsasən, utilizator tərəfindən nəqliyyat vasitələrinin utilizasiya fəaliyyəti ilə bağlı “Tullantılar haqqında” qanunla müəyyən edilən tələblərin pozulmasına və ya vəzifələrin yerinə yetirilməməsinə, yaxud nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyətini həyata keçirən digər şəxs tərəfindən bu fəaliyyətlə bağlı həmin qanunla müəyyən olunan vəzifələrin yerinə yetirilməməsinə görə vəzifəli şəxslər 300 manat məbləğində, hüquqi şəxslər 600 manat məbləğində cərimə olunacaqlar.

Həmçinin utilizator tərəfindən utilizatorların reyestrində onun haqqında olan məlumatlarda baş vermiş dəyişikliklər barədə “Tullantılar haqqında” qanunda nəzərdə tutulan qaydada və müddətdə nəqliyyat vasitələrinin utilizasiyası üzrə operatora məlumatın verilməməsinə görə vəzifəli şəxslər 300 manat məbləğində, hüquqi şəxslər 600 manat məbləğində cərimə ediləcəklər.

Yuxarıda nəzərdə tutulmuş xətaların inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən 1 il ərzində təkrar törədilməsinə görə vəzifəli şəxslər 500 manat məbləğində, hüquqi şəxslər 1000 manat məbləğində cərimələnəcəklər.

Bundan başqa, nəqliyyat vasitəsi utilizasiya edilmiş şəxs yeni avtomobil alarkən ona güzəşt tətbiq etməyən satıcı cərimələnəcək.

Belə ki, nəqliyyat vasitəsinin utilizasiyaya verilməsi barədə təsdiqedici sənəd əsasında yeni istehsal olunmuş nəqliyyat vasitəsinə güzəştin tətbiqindən nəqliyyat vasitələrinin satıcısı tərəfindən imtina edilməsinə görə 4000 manat məbləğində cərimə ediləcək.

Eyni zamanda, layihəyə görə, “Tullantılar haqqında” Qanunda nəzərdə tutulan qaydada verilən təsdiqedici sənədlərin nəqliyyat vasitələrinin satıcısı tərəfindən uçotunun aparılmamasına, yaxud təsdiqedici sənədlər barədə yazılı məlumatın nəqliyyat vasitələrinin utilizasiyası üzrə operatora vaxtında verilməməsinə görə 500 manat məbləğində cərimə olunacaq.

Həmçinin utilizasiya edilmiş nəqliyyat vasitələrindən əldə edilən materialların və əşyaların ehtiyat hissələrinin emalı və satışı ilə məşğul olan sahibkarlıq subyektlərinə satılması barədə utilizator tərəfindən nəqliyyat vasitələrinin utilizasiyası üzrə operatora Tullantılar haqqında” qanunda nəzərdə tutulan qaydada və müddətdə yazılı məlumatın verilməməsinə görə vəzifəli şəxslər 300 manat məbləğində, hüquqi şəxslər 600 manat məbləğində cərimə olunacaqlar.

Utilizator tərəfindən “Tullantılar haqqında” qanunda nəzərdə tutulan qaydada və müddətdə təsdiqedici sənədin verilməməsinə görə vəzifəli şəxslər 3000 manat məbləğində, hüquqi şəxslər 5000 manat məbləğində cərimə ediləcəklər.

Qanuna əsasən, utilizator, yaxud nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyətini həyata keçirən digər şəxs tərəfindən nəqliyyat vasitəsinin təhvil alınması barədə aktın nüsxəsinin “Tullantılar haqqında” qanunda nəzərdə tutulan qaydada və müddətdə nəqliyyat vasitəsini utilizasiyaya verən şəxsə verilməməsinə və ya nəqliyyat vasitələrinin utilizasiyası üzrə operatora göndərilməməsinə görə vəzifəli şəxslər 500 manat məbləğində, hüquqi şəxslər 1000 manat məbləğində cərimə ediləcəklər.

Həmçinin qanuna əsasən, utilizator tərəfindən “Tullantılar haqqında” qanunda nəzərdə tutulan qaydada verilən təsdiqedici sənədlərlə bağlı yazılı məlumatın nəqliyyat vasitələrinin utilizasiyası üzrə operatora vaxtında verilməməsinə görə vəzifəli şəxslər 700 manat məbləğində, hüquqi şəxslər 1500 manat məbləğində cərimə olunacaqlar.

# Broyler şirkətlərinin məhsulları ilə bağlı şok iddialar

## Azərbaycanda da ətlik və damazlıq quşlara təhlükəli iynələr vurulur? - Sual var, cavab isə...

***Tayvanın Türkiyədən aldığı yumurtaların tərkibində kanserogen maddələr aşkarlanıb. Sputnik Azərbaycan Türkiyə mətbuatına istinadla xəbər verir ki, Tayvanın kənd təsərrüfatı naziri Çen Çi-çunq Türkiyədən alınan yumurtalarda qadağan edilmiş maddə olan nitrofuranın aşkarlandığını bildirib. O, iyulun əvvəlində yoxlanılan 127 ton yumurtanın bu səbəbdən məhv edildiyini, yerli bazara çıxarılmadığını söyləyib.***

Tayvanın Kənd təsərrüfatı naziri hökumətin türk tədarükçüsündən müqaviləyə əsasən kompensasiya tələb edəcəyini də açıqlayıb.

Tayvan Milli Heyvandarlıq Sənayesi Korporasiyasının baş direktoru Peter Çen ölkənin təxminən 160 min dollar zərər çəkdiyini bildirib. O, artıq Türkiyədən yumurta idxalının dayandırıldığını, hökumətin ABŞ-dan yumurta idxalına başladığını söyləyib.



Türkiyənin Kənd Təsərrüfatı və Meşə Nazirliyi Tayvana ixrac edilən yumurtalarda insan sağlamlığına zərərli maddələrin olması ilə bağlı araşdırmaya başlayıb. Nazirlik bildirib ki, Türkiyədə ”nitrofuran” olduğu iddia edilən maddənin qida istehsalı üçün yetişdirilən heyvanlarda, o cümlədən toyuqlarda istifadəsi qadağandır. Sitat: ”Mətbuatda bununla bağlı xəbərlər olsa da, Türkiyədən Tayvana ixrac edilən yumurtalarla bağlı Tayvanın səlahiyyətli orqanı tərəfindən bizə heç bir rəsmi bildiriş gəlməyib. Bununla belə, məsələ ilə bağlı araşdırmalara başlamışıq. Sözügedən maddənin yumurta istehsalında istifadə edildiyi müəyyən olunarsa, aidiyyəti şəxslər barəsində lazımi tədbirlər görüləcək” - Nazirlik bildirib.

Bu xəbər Azərbaycana idxal olunan, eyni zamanda ölkədə istehsal edilən quş əti və yumurtaların da sağlamlıq baxımından təhlükəsizliyi məsələsini gündəmə gətirib. Belə ki, mövzu ilə bağlı danışan Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov ilginc açıqlamalar verib. O deyib quşlar daha tez xəstəliklərə yoluxduğundan, onları dərmansız bəsləmək mümkün deyil. ”Ev quşlarını fərdi təsərrüfatlarda belə dərmansız böyütmək mümkün deyil. Ən təhlükəlisi isə odur ki, fermer baytarın hansı iynəni vurmasından xəbərsizdir. Belə şəraitdə biz toyuqların hansı təhlükəli maddələri daşıdığından xəbərsizik”.

Qurum sədri əlavə edib ki, ölkəmizdə müstəqil laboratoriyalar olmadığından, idxal olunan, eləcə də Azərbaycanda istehsal edilən quş əti və yumurtada hansı təhlükəli xəstəliklərin olduğunu söyləmək çətindir. Araşdırmalar isə göstərir ki, fermerlər ev quşlarına dərmanların baytar məsləhəti ilə deyil, baytarlıq apteklərinin tövsiyəsi əsasında alıb verirlər. Əgər ev quşlarında kütləvi ölüm olarsa, bu zaman baytara müraciət edirlər, lakin baytarın hansı preparatdan istifadə etdiklərini bilmirlər.

Yumurta istehsal edən quşçuluq fabrikləri də quşlara vurulan antibiotiklərdən xəbərsiz olduqlarını deyirlər. Lakin onu da əlavə edirlər ki, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən yumurtaların tərkibinə nəzarət olunur və hər hansı təhlükəli maddədən söhbət gedə bilməz.

Azərbaycan Quş Əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Mürvət Həsənlinin sözlərinə görə, Türkiyədən Tayvana idxal edilən yumurtalarda ”nitrofuran” adlı təhlükəli xəstəliyin aşkarlanması yumurta istehsal edən fabrikdə quşların ”salmonella” xəstəliyi keçirdiyindən xəbər verir: ”Buna görə quşlara ”prozaldin”qrupuna aid çox güclü antibiotiklər verilir. ”Nitrofuran” da həmin antibiotikin qalığıdır. Bu maddə ətdə, yumurtada qaldıqda insan orqanizmi üçün zərərlidir.Bu qrupa aid antibiotiklər Avropa və Asiyada qadağandır. Rusiyada və Azərbaycanda isə qadağan deyil. Bununla belə Azərbaycanda həmin qrup antibiotikdən istifadə edilmir. Çünki, bizdə quşçuluq fermalarında belə bir xəstəlik yoxdur. AQTA buna çox ciddi nəzarət edir”.

AQTA-dan isə Azərbaycanda quşçuluq fabriklərində quşlara ”prozaldin”qrupuna aid antibiotiklərdən istifadə edilib-edilməməsi ilə bağlı hələlik açıqlama verilməyib.

Xatırladaq ki, bir neçə il əvvəl Türkiyədə fəaliyyət göstərən Qida Məhsulları və İstehlakçı Mallarının Sertifikasiyası və Nəzarəti Assosiasiyasının (GIMDES) ovaxtkı sədri Hüseyn Kami Böyüközer Azərbaycanın tanınmış broyler şirkətlərindən birinin bəslədiyi toyuqlara geni modifikasiya olunmuş (GMO) qarğıdalı yedirtməsi ilə bağlı qalmaqallı açıqlama ilə çıxış etmişdi. Böyüközər açıqlamasında hazırda mövcud olan peyvənd və bir sıra dərmanların beynəlxalq dərman mafiyasının əlində olduğunu demiş, sonra da əlavə etmişdi ki, yerli toxumu qalmayan, xaricdən buğda toxumu almaq məcburiyyətində qalan bir çox ölkələr belə problemlərlə üzləşirlər. Belə ölkələri aclıqla təhdid edilərək onlara GMO toxumlar verilir.

Bu açıqlamanın ardından məlum olmuşdu ki, Azərbaycanın broyler fabriklərindən biri həqiqətən də, xaricdən alınan yemin çox baha başa gəldiyini nəzərə alaraq “Monsanto” adlı şirkətin hibrit qarğıdalı sortunun yetişdirilməsinə başlayıb. Məlumata görə, ABŞ-a məxsus həmin “Monsanto” şirkətinin hibrit qarğıdalı sortunun əkilməsi üçün Sahibkarlığa Kömək Milli Fondundan 5 milyon manat güzəştli kredit də ayrılıbmış. Məsələnin narahatlıq doğuran tərəfi isə o idi ki, “Monsanto” şirkəti dünyada genetik modifikasiya olunmuş (GMO) məhsulların əsas istehsalçısı kimi tanınıb.

Bundan başqa, ”Sağlam Cəmiyyət” İctimai Birliyinin sədri Elçin Bayramlı da bir neçə il öncəki açıqlamasında broyler toyuğu və onun yumurtalarının insan orqanizminə zərərli olamsı barədə açıqlama verməmişdi. Onun sözlərinə görə, broyler toyuğu və yumurtası ucuz olduğundan əhalinin aztəminatlı hissəsi üçün əlverişlidir: ”Bu məhsulları çox istehlak edənlər pula qənaət etdiklərini düşünürlər. Lakin sağlamlıq hər şeydən də üstündür. Bu gün qənaət edilən pullar tezliklə min dəfələrlə daha çox geri qayıdacaq - sağlamlığın bərpası üçün. Bir çox hallarda isə bu hətta pul müqabilində də mümkün olmur...”.

Bir sözlə, broyler fabriklərinin məhsulları ilə bağlı istər ölkə daxilində, istərsə də ölkə xaricində çalınan həyəcan təbilləri Azərbaycanda bu sahəyə nəzarətin daha da gücləndirilməsini tələb edir. Həmin məhsulların istər idxalı, istərsə də yerli istehsalı ilə bağlı ortaya çıxan suallara birmənalı və konkret cavablar verilməlidir ki, istehlakçılarda yaranan bütün şübhələr aradan qalxsın.

Axı söhbət birbaşa genefondumuzla bağlı olan qida təhlükəsizliyi kimi ən aktual və strateji məsələdən gedir...

***Toğrul Əliyev***

## 5.3.2. fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Şuşadan 148 yaşlı mətbuatımız üçün səslənən mesajlar

## Rəşad Məcid: “Forumda panellərin mövzuları da uğurla seçilmişdi və medianın vacib problemlərinə həsr olunmuşdu”



***Bu günlərdə Milli Mətbuatın 148-ci ildönümü qeyd edildi. 148 il əvvəl “Əkinçi” qəzeti ilə bu yola çıxan milli mətbuatımız hazırda inkişaf dövrünü yaşayır. Milli Mətbuat Günü ərəfəsi “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimi keçirildi. Xarici və yerli mətbuat əməkdaşlarının iştirak etdiyi bu mötəbər tədbirdə medianın inkişafı ilə bağlı çoxsaylı mesajlar verildi. “4-cü Sənaye İnqilabı dövründə Yeni Media”nın qarşısında duran vəzifələr müzakirə edilərək fikir mübadiləsi aparıldı.***

Mətbuat Şurasının sədri, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid “Unikal” qəzetinə açıqlamasında bu Forumun əhəmiyyəti, mediaya töhvəsindən söz açıb. Şura sədri bildirib ki, 49 ölkədən 150 nəfər xarici qonağın, 60 nəfər yerli media rəhbəri və nümayəndəsinin iştirakı ilə üçgünlük Şuşa Qlobal Media Forumu yüksək səviyyədə uğurla başa çatıb. Onun sözlərinə görə, dünyanın aparıcı media qurumlarının, jurnalist təşkilatları rəhbərlərinin, informasiya-kommunikasiya sahəsində nüfuzlu ekspertlərin, tanınmış jurnalistlərin toplaşdıqları belə bir forumun məhz Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilməsi isə ayrıca dərin rəmzi məna kəsb edirdi.

“Forumun açılışında Azərbaycan Prezidenti cənab İlham Əliyevin söylədiyi dərin məzmunlu fikirlərin böyük maraqla qarşılanması, eləcə də tədbir iştirakçılarının dünyada baş verən ən müxtəlif proseslərlə bağlı ünvanladıqları suallar dövlətimizin başçısının dünya səviyyəli bir lider və siyasətçi kimi həmişə xüsusi diqqət mərkəzində olduğundan xəbər verdi. Cənab Prezidentin medianın gələcəyi, azad, müstəqil media ilə bağlı səsləndirdiyi fikirlər, o cümlədən Azərbaycan mediasının müstəqilliyinin cəmiyyətimizin inkişafı üçün başlıca şərtlərdən biri olduğunu, mediamızda sağlamlaşma prosesinin uğurla getdiyini və bu səbəbdən də xalqın maraqlarına zidd, dövlət maraqlarına zərbə vura biləcək yazıların artıq çox nadir hallarda üzə çıxdığını xüsusi vurğulaması olduqca əhəmiyyətli məqamlar idi. “Məhz bunun nəticəsidir ki, bu gün bütün bu iftiralara, böhtanlara, yalanlara baxmayaraq, Azərbaycanın sözü, Azərbaycan xalqının, dövlətinin haqlı səsi eşidilir və bunun əsas aləti bizim media resurslarımızdır”, - deyən Prezident İlham Əliyevin sosial medianı izlədiyini, ölkəmizin həyatı ilə bağlı bir çox mühüm məsələləri sosial mediadan öyrəndiyini, həm sosial medianın, həm də ənənəvi KİV-in ona yardımçı olduğunu dilə gətirməsi də böyük məmnunluqla qarşılandı. Dövlətimizin başçısının Qarabağda, Şuşada aparılan quruculuq işləri barədə söylədikləri, həmişə olduğu kimi, Qarabağdan danışarkən həyəcanla, qürur hissi ilə səsləndirdiyi fikirlər, elə bilirəm, zalda oturan və soyuqqanlılığı ilə seçilən əcnəbi media mütəxəssislərinə də təsirsiz ötüşmədi. Onlar bu emosional, duyğulu, səmimi sözlər sayəsində Şuşanın, Qarabağın Azərbaycan üçün nə qədər vacib olduğunu bir daha gördülər. Cənab Prezidentin Şuşa, onun gələcəyi ilə bağlı dedikləri isə hər bir Azərbaycan vətəndaşının qəlbindən keçən, ürəkləri riqqətə gətirəcək ən təsirli sözlər idi: “Şuşanın bərpasına başlanıb, bir müddət öncə Baş plan təsdiq edilib və indi artıq ilk yaşayış layihəsi icra olunur. ...Şuşa Prezident sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilib və bizim gözləntimiz odur ki, dünyadan çoxsaylı qonaqlarımız, insan axını olacaq. Çünki bu, nadir, misilsiz bir məkandır. Burada tarix, mədəniyyət, memarlıq və iqlim vəhdət təşkil edir. Bu, bizim böyük sərvətimizdir. Bu şəhər qaya üzərində qurulub, qədim şəhərdir və bu, həqiqətən də Qafqazın incisidir və Qarabağın tacıdır... Şuşada hər şey Baş plan əsasında edilir. Bu isə imkan verəcək ki, şəhər daha gözəl olsun. Yəni, heç vaxt olmadığı qədər gözəl olacaq. Çox rahat, müasir şəhər olacaq. Eyni zamanda, təbii ki, onun orijinallığı qorunacaq, çünki bütün tarixi-memarlıq abidələri hazırda bərpa edilir. Şuşaya səyahət edən insanlar burada tez-tez dəyişikliklərin şahidi olurlar. Çünki bu şəhər gündən-günə gözəlləşir. ...Hesab edirəm ki, 3-4 il ərzində bu şəhər təkcə Azərbaycanın və Qafqazın deyil, dünyanın ən gözəl şəhəri olacaq”. Açılış mərasimi bitəndən sonra xarici jurnalistlərin Azərbaycan Prezidentinə yaxınlaşıb onunla mükaliməyə can atmaları, selfi çəkdirmələri isə çox qürurverici məqam, həmçinin dövlətimizin rəhbərinin bu gün dünya siyasətçiləri, ictimai fikir daşıyıcıları arasında xüsusi nüfuza və çəkiyə malik olduğunun göstəricisi idi”.

Rəşad Məcid deyir ki, Forumda panellərin mövzuları da uğurla seçilmişdi və medianın vacib problemlərinə həsr olunmuşdu. O, bildirib ki, “Medianın gələcəyi: Ənənəvi media üçün növbəti addımlar; Rəqəmsal transformasiya diqqət mərkəzində” mövzusundakı birinci paneldə danışılanlar ənənəvi media nümayəndələrində bir qədər məyus ovqat yaratmışdı. Süni intellektin mediada rolu, yeni texnologiyaların medianın gələcək fəaliyyətinə göstərəcəyi təsirlərlə bağlı səsləndirilən pessimist fikirlər təxminən 10 il sonra burada - Şuşada keçiriləcək media forumunda yığışıb medianın hansı problemlərini müzakirə edə biləcəyimiz fikrini sual altına alırdı. Amma “Müasir informasiya mühitində media menecmenti və dayanıqlı media biznes modellərinin yaradılması” mövzusundakı növbəti paneldə Rusiyanın TASS İnformasiya Agentliyinin Baş direktorun birinci müavini Mixail Qusmanın sözləri, elə bilirəm, bu məyusluğa su səpdi; o, yaradıcılığın böyük rolundan danışdı, əlahəzrət müxbirin nə zamansa gündəmdən düşəcəyinə inanmadığını söylədi, yaradıcılıq faktorunun süni intellektə qalib gələcəyini vurğuladı və hesab edirəm ki, bu sözlər xeyli nikbin əhval-ruhiyyənin yaranmasına səbəb oldu. “Medianın gələcəyi: Ənənəvi media üçün növbəti addımlar; Rəqəmsal transformasiya diqqət mərkəzində”, “Yeni mediada istehlak tendensiyaları və media savadlılığı (dezinformasiya və feyk-nyusla mübarizə üsulları)” və “Jurnalistlərin təhlükəsizliyi” mövzusundakı panellərdə də bir çox maraqlı məqamlara toxunuldu, jurnalistlərə qarşı müxtəlif təhdidlər, sosial medianın gətirdiyi yeni faktorlar kimi aktual mövzular ətrafında faydalı müzakirələr aparıldı. “Jurnalistlərin təhlükəsizliyi” mövzusundakı paneldə sosial medianın aqressiyası və jurnalistlərə təzyiqlərlə bağlı məsələ, xüsusilə də Vətən müharibəsi günlərində Azərbaycana səfər edən xarici jurnalistlərə qarşı ermənilər tərəfindən təzyiqlər göstərilməsi ilə bağlı səsləndirilən fikirlər diqqətimi daha çox cəlb elədi.

R. Məcid deyir ki, Forumun açılışındakı nitqinin sonunda ötən il Şuşada Azərbaycan media nümayəndələrinin Forumunun keçirildiyini xatırladan Prezident İlham Əliyev növbəti il bu tədbirin beynəlxalq forum səviyyəsində təşkili ilə bağlı Prezident Administrasiyasına göstəriş verdiyini dilə gətirdi və bu forumun müntəzəm şəkildə, hər il keçirilməsini, bu tədbirin isə Birinci Şuşa Qlobal Media Forumu adlandırılmasını tövsiyə etdi: “Forumun belə formatda hər il keçirilməsilə bağlı dövlət başçısının tövsiyəsi, ardınca da Prezidentin köməkçisi Hikmət Hacıyevin “Artıq sabahdan yeni forumlara hazırlaşmalıyıq” sözləri bu mövzuda ciddi müzakirələrin vacibliyini önə çıxarır. Biz medianın gələcəyini necə görürük? Növbəti beynəlxalq miqyaslı forumlarda hansı məsələlər müzakirə olunmalıdır? Elə bilirəm, indidən bu mövzuda peşəkar yanaşmaların ortaya qoyulmasına, əsaslı təkliflərin irəli sürülməsinə ciddi ehtiyac var. Vaxtilə işğal altındakı ərazilərimizə qanunsuz səfərlər edən 58 nəfər media təmsilçisinin adı bu yaxınlarda Azərbaycan hökuməti tərəfindən arzuolunmaz şəxslər siyahısından çıxarıldı. Dövlətimizin xoşməramlı jestini yüksək qiymətləndirən Azərbaycan Mətbuat Şurası məsələ ilə bağlı bəyanat yaydı. Sonradan həmin şəxslərin bir çoxu bu ərazilərə qanunsuz səfərlərə Azərbaycan dövləti tərəfindən qadağa qoyulduğundan məlumatsız olduğunu bildirib, üzrxahlıq edib. Fikrimcə, növbəti forumlara onların da dəvət edilməsi məqsədəuyğun olardı. Dəvət edək, gəlib Şuşanın indiki vəziyyətini, buradakı prosesləri öz gözləri ilə görsünlər, eyni zamanda media müzakirələrinə qatılsınlar. Bir müddət əvvəl Azərbaycan Mətbuat Şurası mediada qarşılıqlı nifrət ritorikasının azalması çağırışı ilə Ermənistanın müvafiq qurumuna müraciət etmişdi. Bu proseslərin gedişatından asılı olaraq, hesab edirəm ki, növbəti forumlarda Ermənistan jurnalistlərinin də iştirakı məqbul sayıla bilər. Zənnimcə, idmançılarımızın səfərləri kimi, jurnalistlərin də qarşılıqlı səfərlərinin reallaşdırılması yönündə addımların atılmasına artıq başlanılmalıdır. Cənab Prezidentin söylədiyi kimi, doğma Qarabağda yaşayan etnik ermənilərin arasında sağlam düşüncəli insanlar da var və onların içərisində media sahəsində fəaliyyət göstərənlərin bizim forumlarda, müxtəlif tədbirlərdə iştirakı barədə də düşünmək işin xeyrinə olar. Cənab Prezident də çıxışında qeyd etdiyi kimi, oradakı sağlam düşüncəli insanlar xunta rejiminin əsarəti, basqısı altındadırlar, onlar öz fikirlərini söyləyə bilmirlər. Bəs biz onları - bizim vətəndaşlarımızı, oradakı sağlam düşüncəli erməniləri necə xilas etməliyik, onlarla münasibətlərimizi necə qurmalıyıq və bu məsələdə medianın rolu necə olmalıdır? Elə bilirəm, indiki mərhələdə bu məqam barədə konstruktiv düşünmək çox vacib məsələlərdən biridir. ...Üçgünlük Şuşa Qlobal Media Forumu, yazının əvvəlində də qeyd etdiyim kimi, böyük ruh yüksəkliyi ilə keçdi, tədbir bir çox vacib və aktual məsələlərin müzakirələri ilə yadda qaldı. Əminəm ki, bu forumun davamlılığına nail olmaqla Azərbaycan dünyada həm də azad sözə böyük dəyər verdiyinin sanballı bir təzahürünü ortaya qoyacaq. Şuşa Media Forumunun mütəmadi şəkildə keçirilməsi, burada media ilə bağlı müxtəlif vacib mövzuların tanınmış ekspertlərlə, məşhur mütəxəssislərlə müzakirəsi Şuşanı ən fərqli fikrlərin səslənə biləcəyi azad media məkanına çevirə bilər. Ona görə də hər birimiz belə tədbirlərin yüksək səviyyədə keçirilməsi üçün çalışmalı, bu yolda əlimizdən gələni etməliyik. Hər birimizin çiyinlərinə böyük məsuliyyət qoyan bu tarixi missiyanın həyata keçirilməsinə qalib Azərbaycanın gücü də, imkanları da yetər”.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimində iştirak edib və sualları cavablandırıb. Prezident İlham Əliyev bildirib ki, ölkəmizin həyatı ilə bağlı bir çox mühüm məsələləri sosial mediadan öyrənir.

Prezident qeyd edib ki, bizim mediamızda sağlamlaşma prosesi uğurla gedir və xalqın maraqlarına zidd, dövlət maraqlarına zərbə vura biləcək yazılar artıq çox nadir hallarda üzə çıxır. “Yəni, bu, yenə də media nümayəndələrinin məsuliyyətindən xəbər verən amildir. Ona görə media nümayəndələrinə mənim tövsiyəm budur ki, ancaq belə də davam edin” - deyə dövlət başçısı vurğulayıb.

***Gülayə Mecid***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.

# "AzərEnerji" ilə Özbəkistan Milli Elektrik Şəbəkəsi arasında memorandum imzalandı



***Azərbaycanda səfərdə olan Özbəkistan Milli Elektrik Şəbəkəsinin rəhbər heyəti 24 iyul tarixindən etibarən 4 gün ərzində "AzərEnerji" ASC-nin elektrik stansiyaları, yarımstansiyaları, laboratoriya, tədris və rəqəmsal idarəetmə mərkəzlərində olub, bir sıra görüşlərdə iştirak ediblər.***

"Unikal" xəbər verir ki "AzərEnerji" rəhbəri Baba Rzayev və digər şəxslərlə Özbəkistan enerji sisteminin rəhbər heyətinin görüşlərində hər iki ölkənin enerji sistemləri arasında əməkdaşlıq münasibətlərinin mövcud vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Səfərin sonunda "AzərEnerji" ASC ilə Özbəkistan Milli Elektrik Şəbəkəsi ASC arasında memorandum imzalanıb. Memorandumun məqsədi Azərbaycan enerjisisteminin təcrübəsindən faydalanmaq və hər iki ölkənin enerji sahəsində əməkdaşlığını genişləndirilməsindən ibarətdir.

Səfər çərçivəsində Özbəkistan nümayəndə heyətinə "Azərenerji" ASC-nin elektrik stansiyaları, yarımstansiyalar, Rəqəmsal İdarəetmə və yeni SCADA sistemi, bu sistemlərin tətbiqi zamanı vacib olan amillər, proqram təminatı, avtomatika və digər sahələr üzrə geniş məlumatlar verilib.

# Muxtar Babayev indoneziyalı səfirlə görüşdü

***İndoneziya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Hildi Hamidlə ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev arasında görüş keçirilib.***

"Unikal" xəbər verir ki, görüşdə iki ölkə arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb, gələcək perspektivlər müzakirə olunub.

# Yeni məktəbli forması neçəyədir? - RƏSMİ AÇIQLAMA

***Xəbər verdiyimiz kimi, 2023-2024-cü tədris ilindən məktəblilər yeni formalardan istifadə edəcəklər.***



Bu, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun 2022-ci il 17 martda "Dövlət ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarının təsvirləri"nin təsdiq edilməsi haqqında qərarına əsasən həyata keçirilir. Qeyd edək ki, yeni məktəbli formaları artıq satışa çıxarılıb.

"Bakı Tikiş Evi" (BTE) ASC-nin satış üzrə müdiri Etibar Əzimov Bakıvaxtı.az-ın sorğusuna cavab olaraq formaların qiyməti ilə bağlı məlumat verib: "Oğlanlar üçün polo qısaqol və uzunqol köynək 15 manat, şalvar 25 manat, jaket isə 30 manatdır. Qızlar üçün qısaqol və uzunqol polo köynək 15 manat, şalvar 25 manat, jaket 30 manat, ətək 25 manatdır".

Onun sözlərinə görə, valideynlər övladlarına formaları "Bakı Tikiş Evi"ndən başqa aşağıdakı ünvanlardan da ala bilərlər:

1. "Məktəbli Dünyası" əsas mağaza №1. Nəsimi rayonu, Mərdənov Qardaşları 113 (Rusiya səfirliyinin qarşısı)
2. "BTE Məktəbli Dünyası" Filial №2 Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Mehmandarov küçəsi 169 ( Kristal Şadlıq Evinin yanı)
3. "BTE Məktəbli Dünyası" Filial №3 Xətai rayonu, Fəhlə prospekti, "Amay" Ticarət Mərkəzi
4. "BTE Məktəbli Dünyası" Filial №4 Nizami rayonu, Qaraqarayev prospekti 51/57
5. "BTE Məktəbli Dünyası" Filial №5 Metro Əhmədli, Sarayevo küç 22
6. "BTE Məktəbli Dünyası" Filial №6 Nəsimi rayonu "Velotrek" Ticarət Mərkəzi, 20 Yanvar metrosunun çıxışı
7. "BTE Məktəbli Dünyası" Filial №7 Xəzər rayonu, Mərdəkan qəsəbəsi, Yesenin parkının qarşısı, Beynəlxalq Bankın yanı
8. "BTE Məktəbli Dünyası" Filial №8 Qaradağ rayonu, Yeni Sahil qəsəbəsi, B.Vəliyev küçəsi
9. "BTE Məktəbli Dünyası" Filial №9 Yasamal rayonu Həsənbəy Zərdabi küçəsi 55, Qələbə k/t dairəsi.

# Haker hücumlarına məruz qalmış dövlət qurumlarının siyahısı

***Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti dövlət qurumlarının mövcud və yarana biləcək təhlükələrdən qorunması məqsədilə informasiya təhlükəsizliyi üzrə audit və monitorinqlərini davam etdirir.***

"Unikal" Dövlət Xidmətinin yaydığı məlumata istinadən xəbər verir ki, dövlət qurumlarının əməkdaşları üçün həyata keçirilən "Kibergigiyena layihəsi"nə, "İnformasiya təhlükəsizliyinin təmini üzrə Təlimat"ın tətbiqinin təşviq edilməsinə, eləcə də həyata keçirilən digər maarifləndirmə tədbirlərinə baxmayaraq, ikinci rüb ərzində bir sıra dövlət qurumlarının əməkdaşları kibergigiyena qaydalarına riayət etməyərək haker hücumlarının qurbanına çevriliblər.

"Məlumat üçün qeyd edirik ki, 2-ci rübün nəticələrinin 1-ci rüb ilə müqayisəsindən görmək olar ki, kiberhücumların qurbanına çevrilmiş dövlət qulluqçularının sayında 3 dəfəyə qədər azalma müşahidə olunub. Belə ki, 1-ci rüb ərzində haker hücumlarının qurbanına çevrilmiş dövlət qulluqçularının sayı 101 idi.

Bununla yanaşı internetdən istifadə edərkən informasiya təhlükəsizliyinə, fərdi kibergigiyena qaydalarına riayət etməyən vətəndaşlar da haker hücumlarının qurbanına çevrilirlər. Belə vətəndaşların ümumi statistikası haqqında xidmətimizdə məlumat olmasa da, haker hücumlarının qurbanına çevrilərək şəxsi kompüterlərindəki məlumatlarla yanaşı istifadəçisi olduqları dövlət qurumlarının elektron xidmətlərinə aid autentifikasiya (loqin, şifrə) və fərdi məlumatlarını da hakerlərin qurbanına çevirmiş vətəndaşların statistikasını müəyyən etmək mümkün olub", - deyə bildirilir.

| № | QURUM | Dövlət qulluqçusu |
|---|---|---|
| 1 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti | 7 |
| 2 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 3 |
| 3 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi | 2 |
| 4 | Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı ASC | 2 |
| 5 | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 2 |
| 6 | Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 1 |
| 7 | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi | 1 |
| 8 | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi | 1 |
| 9 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 1 |
| 10 | Dövlət Miqrasiya Xidməti | 1 |
| 11 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 1 |
| 12 | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 1 |
| 13 | Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi | 1 |
| 14 | AR Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 1 |
| 15 | AR Mədəniyyət Nazirliyi Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti | 1 |
| 16 | Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurası | 1 |
| 17 | Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi | 1 |
| 18 | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | 1 |
| 19 | Qəbələ Rayon İcra Hakimiyyəti | 1 |
| 20 | Bakı Şəhər Təhsil İdarəsi | 1 |
| 21 | Dənizkənarı Bulvar İdarəsi | 1 |
| 22 | Bakı Şəhər Mədəniyyət Baş İdarəsi | 1 |
| 23 | Bakı Metropoliteni QSC | 1 |
| * | CƏMİ | 34 |

| № | ELEKTRON XİDMƏT TƏMİNATÇILARI | VƏTƏNDAŞ |
|---|---|---|
| 1 | Dövlət İmtahan Mərkəzi | 269 |
| 2 | Rəqəmsal İnkişaf və İnnovasiyalar Nazirliyinin İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi | 132 |
| 3 | Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 44 |
| 4 | İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti | 33 |
| 5 | Daxili İşlər Nazirliyi | 11 |
| 6 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 5 |
| 7 | Dövlət Miqrasiya Xidməti | 4 |
| 8 | Elm və Təhsil Nazirliyi | 3 |
| 9 | Məhkəmə-Hüquq Şurası | 2 |
| 10 | Dövlət Gömrük Komitəsi | 2 |
| 11 | Xarici İşlər Nazirliyi | 2 |
| 12 | Maliyyə Nazirliyi | 2 |
| 13 | Mərkəzi Bank - Virtual Təhsil Platforması | 1 |
| 14 | Domen qeydiyyatı platformaları | 16 |
| * | CƏMİ | 526 |

İkinci rüb ərzində vətəndaşlardan hakerlərə sızmış dövlət qurumlarının elektron xidmətlərinə aid hesabların sayı aşağıdakı şəkildə kimidir.

Qeyd etmək lazımdır ki, birinci rüb ərzində vətəndaşlardan hakerlərə sızmış dövlət qurumlarının elektron xidmətlərinə aid hesabların sayı 6472 olub.

# Məktəbəqədər təhsil müəssisələrinə müdir vəzifəsinə qəbul elan edildi

***Məktəbəqədər təhsil müəssisələrinə müdir vəzifəsinə işə qəbul üzrə müsabiqə elan olunub.***



"Unikal" xəbər verir ki, bu barədə Təhsil İnstitutunun nəzdində İnsan Resursları Mərkəzi elan yayıb.

Bildirilir ki, "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində olan məktəbəqədər təhsil müəssisələrinə müdir vəzifəsinə işə qəbul Qaydaları"na əsasən, məktəbəqədər təhsil müəssisələrinə müdir vəzifəsinə işə qəbulu mərkəzləşdirilmiş qaydada müsabiqə yolu ilə elektron sistem üzərindən həyata keçiriləcək.

Məktəbəqədər təhsil müəssisələrində vakant yerlər Nazirliyin rəsmi internet səhifəsində elan ediləcək.

Müsabiqədə məktəbəqədər təhsil və ya pedaqoji sahə üzrə ali təhsili, məktəbəqədər təhsil müəssisəsində 3 ildən az olmayaraq pedaqoji stajı olan şəxslər iştirak edə bilərlər. Nəzərinizə çatdırırıq ki, müsabiqəyə ilk növbədə dövlət məktəbəqədər təhsil müəssisələrində çalışan şəxslər buraxılacaq.

Müsabiqənin ilkin mərhələsində elektron ərizələrin qəbulu həyata keçiriləcək. Test imtahanı mərhələsində hər bir namizədə məktəbəqədər təhsil və idarəetmə, oxuyub anlama bacarığı, məntiq və məktəbəqədər təhsilin məzmunu istiqamətləri üzrə hər biri 15 sual olmaqla ümumi 60 sual təqdim edilir. Hər bir namizəd üçün imtahanda 120 dəqiqə vaxt ayrılır.

Test imtahanı mərhələsində göstərilən hər bir istiqamət üzrə minimum 5 bal olmaqla ümumi 30 bal və daha yüksək nəticə göstərən namizədlər müsahibə mərhələsinə buraxılır. Müsahibə mərhələsində namizədlər aşağıdakı meyarlar əsasında 5 ballıq şkala ilə qiymətləndirilir:

- ünsiyyət və təqdimetmə bacarığı;
- liderlik və idarəetmə bacarığı;
- məktəbəqədər təhsil sahəsində pedaqoji və metodiki hazırlıq səviyyəsi.

Müsahibədə 3.5 və daha yüksək bal toplamış namizədlər həmin mərhələdən keçmiş hesab edilir. Müsahibə mərhələsinin nəticəsinə əsasən, namizədlərin vakant yerlərə yerləşdirilməsi yerli təhsil idarəetmə orqanının rəyinə uyğun olaraq komissiya tərəfindən aparılacaq.

# Üç rayonda suvarma kanalları ilə bağlı tədbirlər görülüb

***Yevlaxda torpaq kanal beton üzlüyə alınır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Yevlax rayonunda Yevlax Suvarma Sistemləri İdarəsi tərəfindən əkin sahələrinin suvarılmasının vaxtında həyata keçirilməsi üçün meliorativ tədbirlər ilin əvvəlindən etibarən davam edir.***





Əkin sahələri 2 üsulla, mexaniki və özü axımla suvarılır. Özü axımla 29496 hektar, mexaniki üsulla isə 12901 hektar. Mexaniki üsulla suvarma 41 ədəd nasos stansiya vasitəsilə həyata keçirilir. İdarənin balansında 81 km-ə yaxın beton kanal, 112 km nov kanal, 1015 km torpaq kanallar, 1313 km kollektor-drenaj şəbəkəsi və onlar üzərində 3847 ədəd müxtəlif tipli hidrotexniki qurğular, 92 ədəd subartezian və 5 ədəd artezian quyuları, 612 hektar meşə zolaqları mövcuddur. Hazırda Aran qəsəbəsi ərazisində olan torpaq məcralı kanalın beton üzlüyə alınması işləri həyata keçirilir ki, bu da su itkisinin qarşısının alınması istiqamətində mühüm bir addımdır.

Əkin sahələrini mütəşəkkil, vaxtında və normalara uyğun suvarma suyu ilə təmin etmək məqsədilə 2023-ci ilin iki rübü ərzində bir sıra işlər görülüb. Belə ki, cari təmir işləri hesabına rayonun əksər kəndlərini əhatə edən torpaq məcralı suvarma kanallarında 140 km uzunluğunda, kollektor-drenaj sistemində isə 95 km uzunluğunda lildən təmizləmə işləri yerinə yetirilərək su ötürücülüyü yaxşılaşdırılıb. Ümumilikdə idarənin öz gücünə 595 min m3 həcmində lildən təmizləmə işləri yerinə yetirilib.

Qeyd edək ki, Yevlax Suvarma Sistemləri İdarəsi Yevlax rayonun 42397 hektar əkin sahəsini suvarma suyu ilə təmin edir. Əsas su mənbələri Kür çayı, Əlican çayı, Tərtər çayı, Yuxarı Qarabağ Kanalı, Yuxarı Şirvan Kanalı və subartezian quyularıdır.

Biləsuvarda suvarma kanalları lildən təmizlənir. Dilqəm Şərifov bildirib ki, Biləsuvar rayonu üzrə 52780 ha suvarılan torpaq sahəsi mövcuddur. Bu sahələrə Biləsuvar Suvarma Sistemləri İdarəsi xidmət edir. 2023 - cü təsərrüfat ilində 46304 ha payızlıq və yazlıq kənd təsərrüfatı bitkiləri əkilib ki, hazırda bu sahələrin suvarılması uğurla davam edir. 2023-cü ildə 6013 ha pambıq əkilib və bundan 645 hektarı arat olub, 5667 ha səp suvar, 4200 ha birinci vegetasiya suyu ilə təmin olunub və hazırda pambıq sahələrinin suvarılması davam etdirilir. Son aylarda Araz çayında suyun lil və çöküntülü olması ilə əlaqədar suvarma kanallarında təkrar olaraq lildən təmizlənmə işləri görülür ki, bu da suvarma suyunun vaxtında itkisiz təmin olunmasına xidmət edir.

Araz çayında nisbətən su sərfi aşağı olduğundan magistral kanallara suyun verilməsi növbəlilik qrafiki əsasında həyata keçirilir. Belə ki, suvarma suyu Köhnə Cənubi Muğan kanalına verilir. Suvarma suyunun maneəsiz və itkisiz olaraq sahələrə çatdırılması üçün kanallar əl ilə və texnikalara vasitəsi ilə lildən və kol kosdan təmizlənir. Eyni zamanda 5 km-dən artıq uzunluğunda nov kanallar cari təmir olunub. Bundan başqa plana uyğun olaraq bu lin 6 ayı ərzində 178 km təsərrüfatlararası və təsərrüfatdaxili suvarma kanalları lildən təmizlənib. Cənub Muğan kanalından ayrılan təsərrüfatlararası suvarma kanalının 7400 m məsafədə beton üzlüyə alınması işlərinin layihə - smeta sənədləri hazırlanır. Bu kanalın da növbəti mərhələdə beton üzlüyə alınması nəzərdə tutulub.

Qeyd edək ki, Biləsuvar Suvarma Sistemləri İdarəsinin balansında 69 ədəd nasos stansiya var. Bu nasos stansiyalardan 22 ədədi elektrik enerjisi ilə, 47 ədədi isə dizel mühərrikləri vasitəsi ilə çalışır. Nasos stansiyalarda cari və əsaslı təmir işləri aparılıb.

Neftçalada yeni nov kanal çəkilir. Dilqəm Şərifov bildirib ki, Bəhramtəpə Melioservis İdarəsi ölkənin bir-neçə rayonunda kollektor drenaj sistemlərinin lildən təmizlənməsi, torpaq məcralı kanalların beton üzlüyə alınması və yeni nov kanalların çəkilişini həyata keçirir. Görülən işlər nəticəsində torpaqlar meliorativ cəhətdən yaxşılaşır, şoranlaşmanın və su itkisinin qarşısı alınır, əkilən kənd təsərrüfatı bitkilərindən bol məhsul əldə edilir. Hazırda idarə tərəfindən Neftçala rayonu ərazisində nov kanallar yeniləri ilə əvəz olunur. Həm suya qənaət, həmdə suvarma suyunun fermerlərə dah tez və asan çatdırılması baxımından önəmli rola malik olan bu nov kanalların keçdiyi ərazilərdə müxtəlif növ kənd təsərrüfatı bitkiləri, o cümlədən pambıq əkilir. İşlərin yaxın vaxtlara yekunlaşdırılması nəzərdə tutulub.

Qeyd edək ki, Bəhramtəpə Melioservis İdarəsi Neftçala rayonu ilə bərabər hazırda Mərkəzi Muğan Kollektorlarının İstismarı İdarəsinin balansında olan sol sahil kollektorda lildən təmizləmə işlərini davam etdirir. Bundan başqa Füzuli rayonu ərazisində Haramı torpaq məcralı kanalın beton üzlüyə alınması, İmişli rayonunda iki kanalın nov kanallarla əvəzlənməsi işləri nəzərdə tutulub.

***Hüseyn İsgəndərov***



# Nazir müavini İtaliyada sammitdə iştirak edib

***İtaliyanın paytaxtı Roma şəhərində BMT-nin Qida Sistemləri Sammitinin (UNFSS) nəticələrinin nəzərdən keçirilməsi ilə bağlı plenar iclas keçirilib. Tədbirdə ölkəmizi kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov təmsil edib.***

"Unikal" xəbər verir ki, plenar iclas BMT Baş katibinin təşəbbüsü ilə Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu (İFAD) və Ümumdünya Ərzaq Proqramının (WFP) birgə təşkilatçılığı ilə baş tutub. Tədbirin keçirilməsində məqsəd UNFSS-in 2021-ci ildə keçirilən sammitində qarşıya qoyulan vəzifələrin icra vəziyyəti, nəticələrin və onların qlobal ərzaq təhlükəsizliyi sisteminə verdiyi töhfələri nəzərdən keçirmək, "2030 Gündəliyi" proqramının ilkin versiyasını formalaşdırmaqdır.

Toplantıda çıxış edən Azərbaycanın kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov bildirib ki, dünya ictimayyətini vahid hədəf üçün bir yerə toplayan BMT-nin Qida Sistemiləri Sammiti Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün "2030 Gündəliyi"nin icrasına dəstək verən ilk ölkələrdən biri olub. Bu istiqamətdə ölkə miqyasında hədəfləri sürətləndirmək üçün konkret siyasət müəyyən olunaraq həyata keçirilib. Azərbaycanda təşkil olunmuş müxtəlif səviyyəli milli dialoqlarda 2030-cu ilə qədər milli ərzaq sisteminin transformasiyası üçün çağırışların və prioritetlərin müəyyən edilməsində birgə yanaşma təşviq edilib. Qarşılıqlı dialoq şəklində gedən müzakirələrdə əhalinin sürətli artımı, dəyişən istehlak tələbləri, eləcə də iqlim dəyişikliyi və təbii ehtiyatların tükənməsi fonunda dünyada ərzaq və qida təhlükəsizliyinin təmin olunması ətrafında fikir mübadiləsi aparılıb.

Nazir müavini qeyd edib ki, Azərbaycanda aqrar sahənin rəqəmsallaşdırılması istiqamətində ciddi addımlar atılıb. Hazırda ölkəmizdə bütün kənd təsərrüfatı xidmətlərindən və aqrar sahəyə dair dövlət güzəştlərindən Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi vasitəsilə yararlanmaq mümkündür. Bundan əlavə, fermerlərin rəqəmsal transformasiyaya daha yaxşı istiqamətlənməsini təmin etmək üçün ictimai maarifləndirmə və təbliğat xidmətləri həyata keçirilir.

Sarvan Cəfərov bildirib ki, beynəlxalq arenada etibarlı tərəfdaş sayılan Azərbaycan bundan sonra da öz beynəlxlaq tərəfdaşları ilə səmərəli əməkdaşlığın qurulmasına töhfə verməyə hazırdır.

Azərbaycanın kənd təsərrüfatı nazirinin müavini səfər çərçivəsində Romada keçirilən Afrika və Yaxın Şərq üzrə Avropa Korporativ Şurasının 4-cü sammitində iştirak edib. Qlobal iqlim dəyişikliklərinin mənfi təzahürlərinin yaratdığı çətinliklərin müzakirəsinə həsr olunmuş sammitdə çıxış edən Sarvan Cəfərov pandemiyalar və iqlim dəyişikliklərinin insan sağlamlığının əsasını təşkil qida sistemlərini pozduğunu deyib. Nazir müavini bildirib ki, gələcəkd mümkün risklərin qarşısını almaq üçün qlobal miqyasda qarşılıqlı, ortaq yanaşma olmalıdır. Bu baxımdan Azərbaycanın beynəlxalq tərəfdaşları tərəfindən qlobal səviyyədə qəbul edilmiş təşəbbüs və proqramlar hökumətlərin siyasət və strategiyalarının əsas istiqamətləri kimi qəbul edilə bilər.

Sammitdə kənd təsərrüfatının rəqəmsal transformasiyası, bu sahədə texnologiya transferi, qabaqcıl təcrübələrin bölüşülməsi kimi məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ərdoğan suriyalı qaçqınlarla bağlı planını açıqladı



***Ankara 1 milyona yaxın suriyalı qaçqının Türkiyədən öz vətənlərinə qayıtmasını təmin etmək üçün tədbirlər görmək niyyətindədir.***

"Unikal" Türkiyə mediasına istinadən xəbər verir ki, bunu Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan deyib.

Onun sözlərinə görə, Suriyada təhlükəsizlik səviyyəsinin artması ilə geri qayıdan qaçqınların axını da artacaq.

"Bu günə kimi 600 mindən çox məcburi köçkün ölkəyə qayıdıb, biz 1 milyon qaçqının doğma yurdlarına qayıtmasını təmin etməyi planlaşdırırıq", - deyə Ərdoğan bildirib.

*Nuranə Abbasova*

# Şoyqu Şimali Koreya lideri ilə görüşdü



***Şimali Koreya lideri Kim Çen In Pxenyanda Rusiyanın müdafiə naziri Sergey Şoyqunun başçılıq etdiyi Rusiya hərbi nümayəndə heyəti ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə Koreya Mərkəzi Xəbər Agentliyi (KCNA) məlumat yayıb.

Görüşün Rusiya ilə KXDR arasında əlaqələrin daha da dərinləşməsinə xidmət edəcəyi vurğulanır. Məlumata görə, Rusiya Müdafiə Nazirliyinin rəhbəri Kim Çen Ina Rusiya prezidenti Vladimir Putinin şəxsi mesajını təqdim edib. Qeyd olunur ki, Kim Çen In çatdırılan mesaja görə təşəkkür edib. Həmçinin, Şoyqu və Kim Çen In arasında hədiyyələr mübadiləsi aparılıb.

*Gülayə Mecid*

# Zelenski Dneprə getdi, cəbhədəki vəziyyət müzakirə olundu



***Ukrayna Prezidenti Volodimir Zelenski ölkənin cənub-şərqindəki Dnepr şəhərinə səfər edib.***

"Unikal" xəbər verir ki, bu barədə o, özünün "Telegram" kanalına bildirib.

Hərbi komandirlər və hökumət rəsmiləri ilə görüşdə cəbhədəki vəziyyəti, hücum və müdafiə əməliyyatlarının gedişi müzakirə olunub.

Zelenski ali baş komandan Valeri Zalujnı, komandirlər Oleksandr Tarnavski və Aleksandr Sırskinin, eləcə də Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin rəhbəri Kiril Budanovun məruzələrini dinləyib. "Həmişə olduğu kimi, biz qoşunlarımızın döyüş sursatı ilə təchizatına ciddi diqqət yetiririk", - o qeyd edib.

# Kadırov Ukraynada vuruşan çeçenlərin sayını açıqladı

***Çeçenistandan göndərilən yeddi minə yaxın döyüşçü xüsusi hərbi əməliyyat (NVO) zonasında ön cəbhədədir.***

"Unikal" xəbər verir ki, bu barədə Çeçenistan Respublikasının rəhbəri Ramzan Kadırov məlumat yayıb. Ümumilikdə, xüsusi əməliyyat zamanı Çeçenistandan döyüş bölgəsinə 28 min nəfər göndərilib ki, onlardan 13 mini könüllüdür.

Kadırov qeyd edib ki, respublika ərazisində təlim keçən "Axmat" bölmələri Ukrayna Silahlı Qüvvələrinin hücumlarının dəf edilməsində yüksək döyüş qabiliyyəti nümayiş etdirib.

Bundan əvvəl Moskva meri Sergey Sobyanin NVO zonasında moskvalıların sayını açıqlamışdı. Onun sözlərinə görə, 10 000 sakin müqaviləli xidmət üçün qeydiyyatdan keçib, daha 20 000 sakin səfərbər edilib.

*Gülayə Mecid*

# Taxıl dəhlizi Azərbaycandan keçəcək - Rusiyanın yeni planı

***Rusiya dayandırdığı Qara Dəniz Taxıl Sazişini yeni dəhlizlə bərpa etmək istəyir.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Rusiya Xarici İşlər Nazirliyi ölkənin taxıl dəhlizi üçün yeni marşrut açacağını bildirib.

Ukraynanın "UkrAgroConsult" şirkəti bildirib ki, Rusiyanın "Fars xətti" adlı marşrutu özünə alternativ plan olaraq təyin edib.



Məlumata görə, Volqa çayı üzərindəki limanlardan İranın Ənzəli limanına və enerji paytaxtı hesab edilən Qəzvin bölgəsinin terminallarına çatan marşrut, 2022-ci ildə istifadəyə verilib. Beləliklə, Rusiyanın həm öz coğrafiyasında, həm də Ukraynada işğal etdiyi rayonlardan əldə etdiyi taxılı dünyaya çatdırmaq üçün ilk marşrut yaradılıb.

Hindistanın qərbindəki limanlardan İranın cənubundakı limanlara, oradan isə dəmir yolu ilə Xəzər dənizinə və oradan da Rusiyaya gedən ticarət yolu alternativ taxıl marşrutuna daxil edilib. Əsas marşrut daxilində qərbdəki ticarət yolu Azərbaycandan, şərqdəki ticarət yolu isə Qazaxıstan və Türkmənistandan keçir.

*Ağarza Elçinoğlu*

# BMT Baş katibindən Niger hərbçilərinə çağırış

***BMT-nin baş katibi Antonio Quterreş iyulun 26-da Nigerdə üsyan törədən və prezident Məhəmməd Bazumu həbs edən hərbçiləri onu azad etməyə çağırıb.***

"Unikal" xarici mediaya istinadən xəbər verir ki, BMT rəsmisi ölkədə demokratik prinsipləri pozan fəaliyyəti dayandırmağı tövsiyə edib.

"Hakimiyyəti güc yolu ilə ələ keçirmək və Nigerdə demokratik idarəçiliyə, sülhə və sabitliyə xələl gətirmək cəhdini ən sərt şəkildə pisləyirik", - BMT rəhbəri bildirib.

Quterreş bütün tərəfləri "təmkin göstərməyə və konstitusiya quruluşunun qorunmasını təmin etməyə" çağırıb. O, bəyanatında BMT-nin Niger hökuməti və xalqının yanında olduğunu deyib.

*Nuranə Abbasova*



# Putinin həbsinə order verən hakim axtarışa verildi

***Rusiya prezidenti Vladimir Putin və uşaq ombudsmanı Mariya Lvova-Belovanın həbsinə order verən Beynəlxalq Cinayət Məhkəməsinin (ICC) hakimi Tomoko Akane cinayət işi üzrə axtarışa verilib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Daxili İşlər Nazirliyinin axtarış bazası məlumat yayıb.

"Tomoko Akane. Yapon. Rusiya Federasiyası Cinayət Məcəlləsinin maddəsi ilə axtarışa verilib", - məlumat bazasında deyilir.



Martın 17-də Beynəlxalq Cinayət Məhkəməsi Putin və Rusiya Federasiyasının Prezidenti yanında Uşaq Hüquqları üzrə Müvəkkili Mariya Lvova-Belovanın əhalinin qeyri-qanuni deportasiyasından ibarət olan hərbi cinayətlərdə iştirak etmək, o cümlədən uşaqlar və onların qanunsuz olaraq Rusiyaya köçürülməsi" ittihamı ilə həbslərinə order verib.

*Ağarza Elçinoğlu*

# Misir Prezidentinin Türkiyəyə səfəri ləğv edilib

***Misir Prezidenti Əbdülfəttah əs-Sisinin Türkiyəyə səfəri ləğv olunub.***

Buna səbəb Ə. Sisinin Sankt- Peterburqda keçirilən Rusiya-Afrika sammitində iştirakıdır.

Qeyd edək ki, daha əvvəl bildirilmişdi ki, Ə. Sisi bu gün, yəni iyulun 27-də Türkiyəyə gedəcək.

Xatırladaq ki, Ankara ilə Qahirə arasında münasibətlər 2013-cü ildə Misir prezidenti Məhəmməd Mursinin devrilməsindən sonra pisləşib. Bunun ardınca hər iki ölkə səfirlərini geri çağırıb. 2021-ci ilin martında Türkiyənin o zamankı xarici işlər naziri Mövlud Çavuşoğlu Misirlə diplomatik səviyyədə təmasların bərpa olunacağını açıqlamışdı.

2022-ci ilin noyabrında Qətərdə keçirilən futbol üzrə dünya çempionatının açılış mərasimində Misir və Türkiyə prezidentləri arasında qısa görüş baş tutub. Fevralın sonunda Misirin xarici işlər naziri Sameh Şükri Türkiyənin cənubunda zəlzələdən zərər çəkmiş Adana şəhərinə səfər edib. Türkiyə və Misir prezidentlərinin görüşünün mümkünlüyü Ərdoğanın may ayında keçirilən prezident seçkilərində qələbəsindən sonra yayılıb.



# Şəhidlərin xatirəsinə həsr olunan futbol turniri keçirilib



***İkinci Qarabağ müharibəsində düşmənə qarşı qəhrəmanlıqla vuruşub şəhidlik zirvəsinə ucalan hər bir Vətən övladının adı müqəddəs varlığa dönərək xalqın qəlbində yaşayır.***

Cənub qapımız Astaradan da çoxlu gənc canını Vətən yolunda fəda etməklə adını tarixə yazıblar. Astaralılar öz qəhrəman şəhid oğulları ilə fəxr edir, onları hər yerdə ehtiramla xatırlayır. Şəhidlərin adına vaxtaşırı müxtəlif səpkili tədbirlər də həsr edilir. İdman yarışlarının təşkili daha yadda qalan, maraqlı olur. Hazırda rayonun Kijəbə qəsəbə stadionunda Vətən müharibəsi şəhidlər şərəfinə kənd komandaları arasında futbol turniri keçirilir. Turnirdə 9 komanda-Lovayın, Zirvə, Deqadi, Veteran, Kijəbə, Aşağı məhəllə, Sım, Xəzər və Tüləgüvan mübarizə aparır.

Əvvəlcə onu bildirək ki, yarışın açılış günündə Azərbaycan Respublikasının Dövlət Himni oxunub, Vətən müharibəsində canını qurban vermiş şəhidlərin ruhu bir dəqiqəlik sükutla anılıb. Sonra yarışın təşkilatçısı olan Astara Rayon İcra Hakimiyyəti başçısının Kijəbə qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Firudin Əhmədov çıxış edib. O, turnirin məqsədindən, gənclərin idmana sevgisindən geniş söhbət açaraq bu turnirin davamlı olmağını arzulayıb və yarışa qatılan hər bir komandaya uğurlar diləyib.

Komandalar hər gün yaşıl meydançaya qələbə əzmi ilə çıxırlar. Odur ki, oyunlar gərgin mübarizə şəraitində başa çatır. Həm də hər gün oyunlara tamaşa etmək üçün yüzlərlə izləyici qatılır. Şəhid ailə üzvlərinin tamaşaçılar arasında yer alması isə yarışın nə qədər əhəmiyyətli və təqdirəlayiq olduğunu bir daha göstərir.

Turnirin məqsədi gənclərin asudə vaxtlarını səmərəli keçirtmək, onları zərərli vərdişlərdən uzaq salmaq, eləcə bölgələrdə futbolun inkişafıdır.

***Zəfər Orucoğlu, AJB üzvü***

# RFS-in baş məşqçisi: "Nəticə ədalətli deyil"

***"Nəticə tamamilə ədalətli deyil, çünki biz çoxlu qol şansları yaratdıq. Amma bəzən belə olur".***

Qol.az delfi.lv-a istinadən xəbrəv verir ki, bu sözləri Latviya RFS-nin baş məşqçisi Viktor Moroz Konfrans Liqasının 2-ci təsnifat mərhələsinin ilk oyununda evdə "Sabah"a uduzmaqları (0:2) haqda danışarkən deyib. Mütəxəssis "Sabah"ın əks-hücumlardan yaxşı istifadə etdiyini bildirib:



"Rəqibin 3 şansı var idi və 2 qolu vurdu. "Sabah" əks-hücumlarda çox təhlükəlidir. Təəssüf ki, biz bir dənə də olsun qol vura bilmədik. Amma əminəm ki, hələ hər şey başa çatmayıb. Gəlin Azərbaycanda qələbə üçün mübarizə aparaq. Gördük ki, biz daha pis komanda deyilik. İmkanlar var. Çətin olacaq, amma hələ heç nə başa çatmayıb". Qeyd edək ki, "Sabah"la RFŞ arasında cavab oyunu avqustun 3-də Bakıda keçiriləcək.

# "Sponsor olmadığına görə hazırlıq üçün Bakını seçdik" - Azər Məmmədov

***"Kəpəz"in baş məşqçisi Azər Məmmədov klubun mətbuat xidmətinə Bakı toplanışını dəyərləndirib.***

Qol.az xəbər verir ki, o, "Dalğa Arena" təlim-məşq mərkəzində keçirilən hazırlıq prosesi haqqında bunları deyib: "Biz çox istərdik ki, təlim-məşq toplanışını ölkə xaricində keçək. Amma məlum vəziyyətə, klubun sponsoru olmadığına görə hazırlıq üçün Bakını seçdik. Buna baxmayaraq məşqlərimiz plan üzrə getdi. İstədiyimiz kimi hazırlaşa bildik. Sadəcə, yoxlama oyunları üçün rəqib tapmaqda çətinlik çəkdik. Düzdür, "Səbail", "Zirə", "Araz-Naxçıvan" kimi elita təmsilçiləri ilə oynaya bildik".

Mütəxəssis bildirib ki, planlarında beş oyun var idi: "Digər iki sparrinq rəqibimizin də Premyer Liqa klubu olmasını istəyirdik. Amma təəssüflər olsun ki, komandalar ölkə xaricində olduğundan istəyimiz alınmadı. Nəticədə "Səbail-2" ilə oynadıq. Bakıda rəqib tapa bilmədiyimizdən Gəncəyə bir az tez qayıdası olduq. Doğma şəhərimizdə öz əvəzedicilərimizlə də qarşılaşacağıq. Bundan sonra həftəlik oyun hazırlığına başlayacağıq. Bakı toplanışında biz ümumi olaraq səhər



məşqində fiziki, axşam hazırlığında texniki-taktiki çalışmalar üzərində işlədik. Futbolçulara minnətdaram, olduqca məsuliyyətli, istəkli şəkildə məşqlərdə iştirak etdilər. İnşallah, bunun bəhrəsini çempionatda həm biz, həm də onlar görəcəklər".



# "Neftçi" və "Qəbələ" Konfrans Liqasında mübarizəyə başlayır

***"Qəbələ" və "Neftçi" komandaları bu gün UEFA Konfrans Liqasının 2023/2024 mövsümündə mübarizəyə başlayacaqlar.***

"Unikal" xəbər verir ki, ikinci təsnifat mərhələsinin ilk oyununda "qırmızı-qaralar" evdə Kipr "Omoniya"sını qəbul edəcək. Qəbələ şəhər stadionunda keçiriləcək görüş saat 20:00-da başlayacaq. Matçı rumıniyalı FIFA referisi Andrey Çivulete idarə edəcək.

"Neftçi" isə turnirdəki ilk matçına Bosniya və Herseqovinada çıxacaq. Rəqib ölkənin titullu klublarından "Jeleznişar" olacaq. "Qrbavitsa" stadionundakı oyunun start fiti Bakı vaxtı ilə saat 23:00-da veriləcək. Görüşdə ədaləti estoniyalı Yuri Frişer qoruyacaq.

Komandalar arasında cavab oyunları avqustun 3-də keçiriləcək.

# "Real" "Mançester Yunayted"ə qalib gəldi

***Hyustonda (ABŞ) "NRG" stadionunda "Real" və "Mançester Yunayted" arasında yoxlama oyunu keçirilib.***

Matç Madrid klubunun 2:0 hesablı qələbəsi ilə başa çatıb. Komandanın qələbə qollarını yeni transferlər Cud Bellinqem (6-cı dəqiqə) və Xoselu (89) vurublar.

Digər yeni transfer Arda Güler isə zədə səbəbindən sözügedən görüşdə iştirak etməyib.

"Real" növbəti yoxlama görüşünü "Barselona"ya qarşı keçirəcək. "Mançester Yunayted" Dortmund "Borussiya"sı ilə növbəti yoxlama oyununu təyin edib.

# Suares "İnter Mayami"yə buraxılmadi

***Luis Suaresin taleyinə aydınlıq gəlib.***

Uruqvaylı hücumçu "Qremio"da qalacaq. Forvard 2023-cü ilin sonunadək Braziliya klubunu tərk etməyəcək. Suaresin müqaviləsi 2024-cü ilin dekabrında başa çatacaq.

"İnter Mayami" futbolçunun xidmətində maraqlıdır. Lakin "Qremio" rəhbərliyi mövsümün sonunadək Luisi buraxmamağa qərar verib.

Qeyd edək ki, "İnter Mayami"də Suaresin "Barselona"dakı sabiq komanda yoldaşları Lionel Messi və Serxi Buskets çıxış edir.

# "Qarabağ" "5"ə çatdı

***Azərbaycan klublarının 2023/24 mövsümündəki ilk avtoqoluna Elvin Cəfərquliyev imza atıb.***

Apasport.az saytının məlumatına görə, "Qarabağ"ın futbolçusu Çempionlar Liqasında uğursuzluq yaşayıb.

O, "Rakuv"la Polşada keçirilən matçda öz qapısına qol vurub. II təsnifat mərhələsinin bu görüşündə meydan sahibləri 3:2 hesablı qələbə qazanıb.

Bu, "Qarabağ"ın avrokuboklarda 5-ci avtoqoludur. Ağdamlılar qitə kuboklarında öz qapısına ən çox qol vuran Azərbaycan komandasıdır.

Qeyd edək ki, Elvinə qədər Maksim Medvedev üç, Azər Cabbarov bir dəfə "Qarabağ"ın forması ilə qapıları səhv salıb.